YENİ MÜSAVAT

www.musavat.com

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 aprel 2019-cu il Cümə № 71 (7241) Qiyməti 60 qəpik

**Xəbər**

## Əfvlə azadlığa çıxan gəncləri yenidən həbsə kimlər həvəsləndirir?

yazısı səh.3-də

**Gündəm**

### Azərbaycan və Avropa Birliyi tarixi sənəd imzalamaq ərəfəsində



Tərəfdaşlıq sazişi 95 faiz hazırdır; Bakı və Brüsseldən "Gələn ay sənədi tam razılaşdıracağıq" bəyanatı gəldi

yazısı səh.4-də

### Rusiya şirkətləri Bakıya yerləşir

yazısı səh.5-də

### Əkrəm Əylisli Mirzə Cəlil və meyxana müzakirələri haqda danışdı

yazısı səh.3-də

### ABŞ-ın yeni sanksiyaları Azərbaycanı da vura bilər

yazısı səh.5-də

### Ermənistan hərblə sülh arasında: seçim uzaqda deyil

yazısı səh.11-də

### Milli Məclisdə qapalı iclas

yazısı səh.6-da

### Türkiyə dilemma qarşısında : "S- 400", yoxsa NATO?

yazısı səh.8-də

### Neft bazarında qiymət oyunu

yazısı səh.14-də

### Müxalifətin mitinq dartışması bitmir

yazısı səh.3-də

### Autizm xəstəliyi: dünyanın və Azərbaycanın sağalmaz bəlası

yazısı səh.14-də

### "Diqlas"da malı yananlara veriləcək məbləğ bilindi

yazısı səh.12-də

### Kartofla kələmi bahalaşdıran səbəblər

yazısı səh.12-də

# ABŞ-DAN JEST - AZƏRBAYCANI HƏDƏLƏYƏN ERMƏNİ NAZİRİ PENTAQON PƏRT ETDİ

Ermənistanın dünyanı Qarabağ yalanına inandırmaq siyasəti fiaskoda; klassik erməni məkri, **yoxsa nonsens:** Paşinyanın güc naziri Amerikadan müharibə bəyanatı verir, arvadı isə - elə oradanca sülh bəyanatı...




yazısı səh.9-da

# Prezidentin məhkəmələrlə bağlı fərmanı - ədalət, şəffaflıq...

**Hüquqşünas Azərbaycan məhkəmələrinin simasını dəyişəcək fərmandan danışdı:** "Xarici investorların ölkəyə cəlb edilməsi məhkəmə sisteminin müstəqilliyini təmin etməkdən keçir"

yazısı səh.10-da



### Müxalifətin "məktublaşma" oyunu-İlqar Məmmədov liderləri ittiham etdi

yazısı səh.7-də



### Generaldan ordumuz haqda böhtanlara sərt cavab

yazısı səh.6-da



### Musa Yaqubun müalicəsinə kömək etməyən AYB-ni suçlamasına reaksiya

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 71 (7241) 5 aprel 2019

## Nizami Xudiyev Prezidentin fərdi təqaüdünü alacaq

**Prezident İlham Əliyev Nizami Xudiyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb. Sərəncamla Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Nizami Manaf oğlu Xudiyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü veriləcək.**

Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.



## "Azərışıq" enerji itkilərini xeyli azaldıb

**Aprelin 4-də"Azərışıq" ASC-də 2019-cu ilin 1-ci rübün yekunları ilə bağlı mətbuat konfransı təşkil edilib. "Yeni Müsavat"ın əməkdaşının verdiyi məlumata görə tədbiri giriş sözü ilə ASC-nin enerji satışı departamentinin direktorunun 1-ci müavini Vüqar Həbibbəyli açıb.**

O, qurumun texniki itkilərinin dinamikası haqda geniş məlumat verib: "2015-ci ildə enerji sahəsində texniki itkilər 13,8 faiz idisə, hazırda bu rəqəm 9, 8 faizə endirilib. Bundan başqa, xidmət göstərilən ərazilərdə kabelləşdirilmə işləri görülüb, şəbəkələrdə yüklənmə səviyyəsi aşağı enib. Fəaliyyətimizin ilk ilində görülən tədbirlərdən biri də həmçinin yığım artırılması, hər bir abonenti keyfiyyətli elektrik enerjisi ilə təmin etmək olub".

**Qurum əməkdaşı həmçinin qeyd edib ki, alınan elektrik enerjisi həcminin də dinamikası aşağı düşüb:**

"Əgər 2016-cı ildə alınan elektrik enerjisi 19688, 4 mln. kVt/saat idisə, bu rəqəm 2017- ci ildə 18 587,6 mln. kVt/saat , 2018-ci ildə isə 18 785.6 mln. kVt/saat olub.

İtkilərə birbaşa təsir edən amillərdən biri şəbəkələrin yüklənmə səviyyəsinin aşağı salınması, eləcə də balans sisteminin lokallaşdırılmasıdır".

**Vüqar Həbibbəylinin sözlərinə görə, 2019-cu ilin sonlarına qədər elektrik enerjisində olan itkilərin 0,2 faiz azalması gözlənilir:** "Regionlardakı elektrik enerjisinin texniki itkilərini də 11,3 faizdən 7,8-8 faizə qədər endirmək niyyətindəyik. "Azərışıq"ın qarşısına qoyduğu məqsəd 0.4 kVt/saat elektrik şəbəkəsinin tamamən yenilənməsidir.

2015-ci ildən bu yana 1 milyona qədər sayğac yenisi ilə əvəzlənib, uçot sistemi dəyişdirilib".

❑ **Xalidə GƏRAY**
**Foto müəllifindir**
**"Yeni Müsavat"**

## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**

# Qaşıqçının ailəsinə qan pulu verildi?

## Kənan Rövşənoğlu: "Bu məsələni yaratdığı səs-küyə uyğun şəkildə, böyük məbləğdə qan pulu ilə həll etmək xətti seçilmiş ola bilər"

**"Səudiyyə Ərəbistanı qətlə yetirilmiş jurnalist Camal Qaşıqçının 4 övladına milyonlarla dollar dəyərində evlər verib və böyük miqdarda aylıq ödənişlər edib". Xəbər verdiyimiz kimi, bu barədə "The Washington Post"un hesabatında qeyd edilir.**




Bildirilir ki, krallıq C.Qaşıqçının ailəsini onun ölümündə Səudiyyə Ərəbistanı agentlərini ittiham etməkdən çəkindirmək üçün bu addımı atıb (ONA). Nəşrin məlumatına görə, gələcək aylarda ailəyə "qan pulu" kimi 10 milyonlarla dollar təklif edilə bilər.

"Yeni Müsavat" yazır ki, bu informasiya ciddi müzakirələrə səbəb olub. Bunu Qaşıqçı ailəsinə verilən qan pulu kimi də qiymətləndirənlər var. Yəni sətiraltı ailənin bu formada mükafatlandırılması həm də qətlin sifarişçisinin kimliyi barədə şübhələri möhkəmləndirir. Ümumiyyətlə, İslamda qan pulu anlayışı varmı? Varsa, hansı məqamlarda keçərlidir? Və bu situasiya qan puluna uyğun sayılırmı?

**Dini ekspert Kənan Rövşənoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hələlik C.Qaşıqçının övladına milyonlarla dollar dəyərində evlər verilməsi və böyük miqdarda aylıq ödənişlər edilməsi barədə məlumatın dəqiqliyi təsdiqlənməyib. Müsahibimizin sözlərinə görə, ailə üzvlərinin özü tərəfindən belə bir açıqlama verilməyib və məlumat "Vaşinqton Post" qəzetində yayılıb:** "Ərəbistan şəriət dövlətidir. Orda bu məsələlər islami qanunlarla nizamlanır. Ona görə də bu məsələni yaratdığı səs-küyə uyğun şəkildə, böyük məbləğdə qan pulu ilə həll etmək xətti seçilmiş ola bilər. Çünki hökumətin rəsmi etirafına görə, bu qətldə adı olanlar Səudiyyə vətəndaşları və hökumət nümayəndələridir. Artıq 18 nəfər həbs olundu. Onların əksəri dövlət məmurlarıdır. Bu məbləğ dövlət tərəfindən ödənildi. Kral Qaşıqçının oğlanlarını qəbul etdi".

**"Bu vəsaitin ödənməsində ailənin ələ alınması məqamı varmı" sualına cavabda K.Rövşənoğlu bunu istisna etmədi. Dedi ki, bu qətldə Səudiyyə kralı oğlunun da adı hallanırdı:** "Həbs olunanlardırın çoxu hökumət məmurlarıdır, onların məhkəməsi gedir. Edam da edə bilərlər hansınısa. Qaşıqçının müxalifətçi olması, bu məsələdə kral oğlunun adının hallanması və nəticədə kralın onu qəbul etməsi də bu məsələdə önəmli detallardır. Siyasi məsələ olduğuna görə bu qətlə və ardınca yaşananlara sıradan hadisələr kimi baxmaq olmaz".

Ekspert eyni zamanda bildirdi ki, Quran bu məsələdə əfvi məqbil görür. Bundan başqa, hələlik Qaşıqçı cinayəti ilə bağlı konkret qatilin kimliyi sübut edilməyib. Buna səbəb məhkəmənin hələ yekunlaşmamasıdır. Müsahibimizin sözlərinə görə, hazırda bu iş üzrə 11 nəfərin məhkəməsi gedir. Amma olayda kral ailə üzvlərinin adı hallandığı üçün ələ alınma cəhdləri, qan pulu ilə bağlı versiyalar da istisna edilmir.

Qeyd edək ki, Camal Qaşıqçı 2018-ci il oktyabrın 2-də Səudiyyə Ərəbistanının İstanbuldakı Konsulluğunda qətlə yetirilib.

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

## Bakıda qadını maşınla vurub qaçan sürücü həbs edildi



**Polis və prokurorluq əməkdaşları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində paytaxtın Qaradağ rayonu ərazisində yol nəqliyyat vasitələrinin istismarı qaydalarını kobud surətdə pozaraq insan ölümünə səbəb olan və hadisə yerindən qaçan sürücü müəyyən ediləræk istintaqa cəlb olunub.**

Respublika Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinin yaydığı birgə məlumatda deyilir ki, aprelin 1-də Bakı-Qazax avtomobil yolunun Qaradağ rayonu Ələt qəsəbəsi ərazisindən keçən hissəsində naməlum avtomobilin sürücüsü yolun kənarında dayanmış piyada 1988-ci il təvəllüdlü Əfsanə Qurbanovanı vuraraq hadisə yerindən qaçıb, Ə.Qurbanova isə aldığı xəsarətlərdən hadisə yerində ölüb.

Aparılmış istintaqla hadisənin Məzahir Sadıqov tərəfindən "KamAZ-5511" markalı avtomobillə yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını kobud surətdə pozaraq törədilməsinə, daha sonra yol-nəqliyyat hadisəsi yerindən qaçmasına əsaslı şübhələr müəyyən edilib.

Aprelin 3-də M.Sadıqova Cinayət Məcəlləsinin qeyd edilən maddələri ilə ittiham elan olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.



## Bakıda 16 dərəcə isti olacaq

**Aprelin 5-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, yağmursuz keçəcəyi gözlənilir.**

Virtualaz.org Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinə istinadən bildirir ki, səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub küləyi axşam şimal-qərb küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu Abşeron yarımadasında gecə 7-9, gündüz 13-16, Bakıda gecə 7-9, gündüz 14-16 dərəcə isti təşkil edəcək.

## FHN: "Diqlas" Ticarət Mərkəzi söküləcək

**"Diqlas" Ticarət Mərkəzi söküləcək. Bu barədə Fövqəladə Hallar Nazirliyi (FHN) məlumat yayıb.**

Bildirilib ki, mütəxəssislər tərəfindən verilmiş rəyə əsasən, ticarət mərkəzi söküləcək.

## Rejissor Georgi Daneliya vəfat edib

**Keçmiş SSRİ-nin və Rusiyanın məşhur rejissoru Georgi Daneliya vəfat edib.**

"Novaya qazeta" xəbər verir ki, bunu rejissorun ailəsi bildirib.

O, 88 yaşında Rusiya paytaxtı Moskvada dünyasını dəyişib.

Qeyd edək ki, G.Daneliya məşhur "Mimino", "Afonya", "Uğur centlmenləri" kimi filmlərin rejissoru olub.

## Quldur dəstəsinə hökm oxundu - 62 il 6 ay həbs cəzası

**Bakı Ağır Cinayətlər Məhkəməsində quldurluqda ittiham olunan Rəşad Zərbəliyev, Kənan Səfərov, Cabir Zərbəliyev, Tural Əliyev, Mehdi Əliyev və İbrahim Mustafayevin cinayət işi üzrə məhkəmə istintaqı yekunlaşıb.**

Musavat.com-un xəbərinə görə, prosesdə hökm oxunub. Hökmə əsasən, Rəşad Zərbəliyev 12 il 6 ay, Kənan Səfərov, Cabir Zərbəliyev, Tural Əliyev, Mehdi Əliyev və İbrahim Mustafayevin hər biri 10 il müddətinə azadlıqdan məhrum ediliblər.

Qeyd edək ki, cinayət hadisəsi ötən il yanvarın 19-da Şamaxı rayonunun Məlhəm kəndində baş verib. Gecə saat 3 radələrində həmin kənddə yaşayan Gülbar Novruzovun evinə girən üç maskalı şəxs onun və xanımı Gülyaz Novruzovanın əl və ayaqlarını yapışqanlı lentlə bağlayıblar. Hər iki şəxsi döyərək evdən 12 min manat, 3 min ABŞ dolları və 100 min rubl (2500 manat) aparıblar. Əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən 6 nəfər - Rəşad Zərbəliyev, Kənan Səfərov, Cabir Zərbəliyev, Tural Əliyev, Mehdi Əliyev və İbrahim Mustafayev müəyyən edilərək saxlanılıb.

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

YENİ MÜSAVAT
N 71 (7241) 5 aprel 2019

# Əfvlə azadlığa çıxan gəncləri yenidən həbsə kimlər həvəsləndirir?

**Novruz əfvi ilə azadlığa çıxan siyasi məhbuslardan əvvəlcə Bayram Məmmədovun 30 sutka inzibati cəza alması, ardınca digər fəal Qiyas İbrahimovun Bakı Şəhər Baş Polis İdarəsinə çağırılıb dindirilməsi ciddi müzakirələr doğurub. Bu istiqamətdə çoxsaylı mövqelər səslənməkdədir.**


Qiyas İbrahimov


Bayram Məmmədov

50-dən çox siyasi məhbusun azad olunduğu son əfv sərəncamının ölkə daxilində və xaricində müəyyən dairələri ciddi narahat etdiyi bildirilir. Məhz əfvə kölgə salmaq üçün bu cür situasiyanın əvvəlcədən təşkil olunduğu ehtimal edilir. Burada hakimiyyətdaxili bəzi qrupların əlinin olduğu yönündə də iddialar var. Artıq "Human Rights Watch" və "Amnesty International" kimi nüfuzlu beynəlxalq qurumlar B.Məmmədovun dərhal azadlığa buraxılması ilə bağlı bəyanat qəbul ediblər. Siyasi şərhçilər bu cür bəyanatların son əfv sərəncamından sonra daha da istiləşən Azərbaycan-Qərb münasibətlərinə kölgə sala biləcəyindən narahatlıq doğuran açıqlamalar verirlər.

Gənc fəalların yenidən həbsə həvəslənməsi təbii suallar doğurur. B.Məmmədov və Q.İbrahimovun partiya mənsubiyyətləri olmadığı üçün əlbəttə ki, sosial bazaları da yoxdur. Amma sanki indi onlar "iki lider" kimi ortaya çıxıblar, diqqəti özlərinə cəlb etmək üçün "yarışırlar".


**Elçin Mirzəbəyli:** "Onlar bunu konkret məqsədlər və təlimat əsasında edirlər"


**Mirvari Qəhrəmanlı:** "Bu, düşünülmüş şəkildə gedən bir prosesdir"

**Politoloq Elçin Mirzəbəyli adıçəkilən şəxslərin cinayət məsuliyyətinə yol verdiklərini söylədi:** "Söhbət adıçəkilən şəxslərin kimliyindən, onlara olan münasibətdən, az yaxud çox siyasi potensiala malik olmasından deyil, konkret Azərbaycan vətəndaşının qanunvericiliyin tələblərinə əməl etməsindən gedir. Hüquqi baxımdan adıçəkilən şəxslər inzibati qanun pozuntusuna yol veriblər və buna görə də məsuliyyət daşımalıdırlar. Bu şəxslərin əfvdən sonra aşırı aqressiya nümayiş etdirmələrinə gəldikdə isə düşünürəm ki, onlar bunu konkret məqsədlər və təlimat əsasında edirlər. Bu, açıq-aşkar görünür. Mən hakimiyyət daxilində - əgər varsa - hansısa qrupun, yaxud qrupların məqsədyönlü şəkildə dövlətin maraqlarına zidd addımlar atmaq qədər cəsarətli olduğunu düşünmürəm. Əks təqdirdə, buna olduqca sərt reaksiyanın verildiyinin şahidi olardıq. Məsələ orasındadır ki, hər iki şəxs davranışlarında qanunvericiliyin tələblərini pozan və inzibati məsuliyyət yaradan hərəkətlərə yol veriblər. Onların əfv olunması, yaxud hansısa təşkilatın ehtimal olunan reaksiyası əsas vermir ki, bu və ya digər hüquq pozuntusu görməzdən gəlinsin. Digər tərəfdən, Azərbaycan prezidenti əfv sərəncamını da hansısa beynəlxalq təşkilatın verəcəyi reaksiyaya görə imzalamayıb. Ölkəmizdə mütəmadi olaraq əfv sərəncamları imzalanır, amnistiya ilə bağlı qanunvericilik aktları qəbul edilir".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı səslənən iddialarda həqiqətlərin ola biləcəyini düşünür:** "Aprelin 3-də, nəhayət, İnsan Haqları üzrə Birgə İşçi Qrupunun uzun müddətdir baş tutmayan iclası keçirildi. İclasda da o məsələ qaldırıldı ki, əfvlə azadlığa çıxan gənclərə qarşı planlı şəkildə düşünülmüş hadisə nə ilə əlaqədardır. Bu istiqamətdə müxtəlif fikirlər bildirildi. Hüquq müdafiəçiləri siyasi məhbusların azad olunması yolunda addımlarını daim atırlar, hökumətlə dialoqa getməyə çalışırlar. Ölkədə bu istiqamətdə ciddi proseslərin getdiyini də söyləmək olar. Amma çox təəssüflər olsun ki, həm də ölkədə təəccüblü proseslər cərəyan edir. Hökumət daxildə gedən bu prosesləri tənzimləməyə çalışmalıdır. Bayram barədə tələm-tələsik qərarın verilməsi, ardınca Qiyasın evi qarşısında təşkil olunan şou, yaxud da o gənclərdən birinə yönləndirilən hazırlanmış sualların verilməsi və həbsdən çıxıb hələ adaptasiya olunmamış birisinin bu suallara cavab verməsi həm hakimiyyət daxilində müəyyən qrupların, həm də ölkə xaricindəki bəzi dairələrin fəaliyyətinin nəticələridir. Bu, düşünülmüş şəkildə gedən bir prosesdir. Burada Azərbaycanda demokratik proseslərin getməsinə mane olmaq istəyən qruplar ciddi fəaliyyət göstərirlər. Hökumət xaricdən daha çox daxildəki bu qüvvələrlə bağlı addımlar atmalıdır. İşçi Qrupunun son iclasında bu məsələlərdən danışaraq ölkəmizin imicinə zərbə olduğunu söylədim. Qarabağ ətrafında gedən proseslərə bunun təsirləri olmamış deyil. Bu baş verənlər QHT-lərə, xüsusilə hüquq müdafiəçilərinə qarşı yürüdülən siyasətin nəticəsidir. Ölkədə müstəqil QHT-lərin sıradan çıxarılması bu cür qüvvələrin ortaya çıxması ilə nəticələndi. Hökumət daxildəki qruplaşmaların qarşısını almalıdır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Əkrəm Əylisli Mirzə Cəlil və meyxana müzakirələri haqda danışdı

## "30 ildir Azərbaycan Yazıçılar Birliyində hərəkət, inkişaf yoxdur"



**Yazıçı Əkrəm Əylisli son günlər gündəmin müzakirə olunan məsələləri barədə "Yeni Müsavat"a danışıb. Söhbəti təqdim edirik.**

***- Əkrəm müəllim, son vaxtlar yazarlar iki cəbhəyə bölünüblər və Mirzə Cəlil Məmmədquluzadəni təftiş edirlər. Sizin bu mövzuda mövqeyiniz nədir?***

- Mirzə Cəlil mövzusu Azərbaycan ədəbiyyatındakı əsas problemləri diqqətdən kənarda saxlamaq məqsədi güdür və bu müzakirələr ədəbiyyatı öz dərdlərindən uzaqlaşdırır. Onsuz da hər dəfə bir mövzu tapırlar, onu uzadırlar, bu gün də Mirzə Cəlilin üstünə düşüblər.

İnsanın birinin yetişdiyi zirvəyə əli çatmırsa, həmin istedadı yoxa çıxarmaq yanğısı ilə alışır. Mirzə Cəlil Azərbaycan ədəbiyyatının, maarifçiliyinin, bizim həyatımızın işığıdır. Ona necə böhtanlar atmaq olar? Sadəcə, bu mövzular baş qatmaq, həllini tapmalı olan problemlərin üstündən keçmək üçün müzakirəyə çevrilib.

Məsələn, 30 ildir Azərbaycan Yazıçılar Birliyində hərəkət, inkişaf yoxdur. Bu qurumda ədəbiyyatın təzələnməsi, yeni həyat qəbul etməsi üçün qapıları bağlanıb. Yazıçılar Birliyinin iki min yazıçı, şair ordusu var, aralarında talantlı olanlar var, di gəl onlar qurumdakı 3-4 adamın şəxsi mənafeyinin keşiyində dururlar. Baxırsan ki, bir yazıçıya yubiley keçirirlər. Amma bunlar bir "quş" qoyurlar ki, filankəsə də yubiley keçirdik, ədəbiyyatın problemləri isə qıraqda qalır. Ona görə də Mirzə Cəlil mövzusuna qoşulanlar dərk eləmirlər ki, məqsəd baş qatmaqdır. Mirzə Cəlil barəsində danışmağa mənəvi hüquqlu olan adamlar danışmalıdırlar.

***- Sizcə, son günlər müzakirə edilən meyxana məsələsi də eyni mahiyyəti daşıyır?***

- Əlbəttə ki... Canlı problemlər kənarda qalıb. Mən o vaxt 100 min tirajla meyxanaçıların kitabını buraxdım, satdılar. İstəyirdim ki, insanlarda bu həsrəti öldürək. Kitabda bütün meyxanaçılar varıydı. Məqsədim o idi ki, bu həsrət millətin canından çıxsın. İnsanlara nəyisə qadağa qoyanda ona doğru daha çox qaçırlar. İndi Mirzə Cəlili də inkar eləmək, gah demək ki, erməni uşağını savadlı göstərib, bizimkiləri cahil, bu müzakirələr baş qatmağa hesablanıb.

Mənə elə gəlir ki, Azərbaycan ziyalısı sözünü bir yerə qoysa, çox məsələlərin həllinə nail ola bilərik. Bizdə ictimai quruluş dəyişib, amma mənəvi formasiya qalıb, o, dəyişməyə məhkumdur. Mən yazılarımın birində qeyd eləmişdim ki, fəsillər dəyişməlidir. Yəni əxlaq fəsli dəyişməsə, biz heç nəyə nail olmayacağıq.

Ona görə də Mirzə Cəlili tənqid etmək olar, amma ona şər atırlar. Hamıya şər atdılar, gördülər Mirzə Cəlil qalıb, ona da şər atdılar. Bu cür hara gedib çıxacağıq, bilmirəm...

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Müxalifətin mitinq dartışması bitmir

## Milli Şura Müsavatın ardından Qarabağ Komitəsinə də "əlcək atdı"...

**Milli Şura ilə Qarabağ Komitəsi (QK) arasında gərginlik yaranıb. Buna səbəb QK-nın aprelin 20-nə "Qarabağa azadlıq!" şüarı ilə aksiya təyin etməsidir.**

Komitə bu qərarı aprelin 3-də keçirdiyi iclasda qəbul edib və iclas sosial şəbəkələr, bir sıra media orqanları üzərindən canlı yayımlanıb. QK-nın mitinq qərarından saatlar sonra MŞ-nin aprelin 6-na təyin etdiyi aksiyaya Bakı Şəhər İcra Hakimiyyəti rədd cavabı verib. Əsasən Əli Kərimlinin lider olduğu AXCP-dən ibarət olan MŞ isə dərhal aprelin 20-də komitə ilə eyni saatda, eyni məkanda (Məhsul stadionu") aksiya təyin edib. Bu da sosial şəbəkələrdə ciddi gərginlik yaradıb. Artıq komitənin aprelin 13-də mitinq keçirməsi məsələsi gündəmə gəlib.

**QK-nın təsisçilərindən olan AĞ Partiya başqanı Tural Abbaslı "Yeni Müsavat"da məsələyə bu cür aydınlıq gətirdi:** "Qarabağ Komitəsi aprelin 3-də keçirdiyi iclasda aprelin 20-nə aksiya təyin edib. Bu qərardan saatlar sonra Milli Şuranın aksiyasına icazə verilməyib və onlar da bizim təyin etdiyimiz günə aksiya təyin ediblər. Gərək belə mitinqlərin günü müəyyənləşdiriləndə siyasi qüvvələr diqqətli olsunlar. Çünki belə hallar cəmiyyətdə də çaşqınlıq yarada bilər. Qarabağ məsələsi ümummilli məsələdir. Komitənin təyin etdiyi günə mitinq təyin etmək siyasi etiket baxımından uyğun deyil. Ümid etmək istəyirəm ki, onlar informasiyasızlıqdan belə qərar veriblər. Amma Qarabağ məsələsi daha önəmli olduğu üçün buna daha həssas yanaşmaq lazımdır. Güman edirəm ki, növbəti aksiyalar təyin ediləndə daha diqqətli olarlar. Qarabağ Komitəsinin növbəti iclasında yəqin bununla bağlı diskussiyalar olacaq. Ümumi qərar nə olacaqsa, onu da qəbul edəcəyik. Razılığa gəlinsə, mitinq günü də təyin oluna bilər. Amma aprelin 20-i qərarı dəyişdirilməyə də bilər. Adətən hakimiyyət mitinqlərə icazə verməyə həvəsli deyil. Bizim üçün əsas məsələ Qarabağ probleminin gündəmdə saxlanılmasıdır. Hər hansı qüvvələrlə siyasi polemikaya girməyi indiki şəraitdə məqsədəuyğun hesab etmirik".

**QK-nın daha bir təsisçisi, AXP sədri Pənah Hüseyn MŞ-nin qərarı ilə bağlı öz facebook profilində status paylaşıb:** "Qarabağ Komitəsinin ümumi toplantısında 20 aprel tarixində Qarabağa azadlıq şüarı ilə mitinqin keçirilməsi barədə müraciət haqqında qərar qəbul edilib. Qərarın qəbul edildiyi toplantı Xural.com-da və facebookda canlı yayınlanıb. Bir qədər əvvəl məlumat keçdi ki, həmin tarix və yerə Milli Şura da mitinq təyin edib. Əgər bu doğrudursa, anlaşılmazlığın aradan götürülməsi və müraciətlərə rədd cavabı verilməsinə bəhanə verməmək üçün keçirilməsi istənilən mitinqin birinin tarixini dəyişmək məqsədəuyğundur. QK- nin mitinq müzakirələrində 13 aprel tarixinin də səsləndiyini nəzərə alaraq təklif edirəm ki, Qarabağ Komitəsinin İdarə Heyəti gec olmayaraq müzakirə keçirib 13 aprel və ya başqa tarixə müraciət haqqında qərar versin və müraciəti göndərsin".

Qeyd edək ki, bundan öncə də Müsavat Partiyası ilə MŞ arasında mitinq qarşıdurması yaranmışdı. Ona səbəb də Müsavatın 7 aprelə təyin etdiyi yürüş mitinqin ardından MŞ-nin 6 aprelə aksiya təyin etməsi olmuşdu. Artıq hər iki aksiyaya icazə verilməyib.

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 71 (7241) 5 aprel 2019



# Bəyənilməyən gözəlin balladası

Samir SARI

**Toplum olaraq bizim ən böyük minuslarımızdan biri də paxıllıq, bəyənməzlikdir. Bu ölkədə bir-birini bəyənən, rus demişkən, “priznavat” edən, türkün sözü, qəbullanan iki adam görəndə adamın riqqətdən gözü dolur. Çünki bu, nadir istisnalardan biridir. Eyni ruh halını biz hansısa idmançımız olimpiya çempionu olanda yaşayırıq, adətən.**

Klassik aşiq-şairimiz Abbas Tufarqanlı da öz zamanında bu mövzuya toxunaraq, “Ala qarğa şux tərlanı bəyənməz” rədifli gözəl bir şeir ləfeyə alıb, amma o şeiri burada iqtibas etsək, uzun çəkər.

Şairlərin, yazıçıların köhnə xasiyyətidir, hələm-hələm bir-birinin yazısını bəyənməzlər. Bunun onların şəxsi dostluqlarına aidiyyəti yoxdur, oturub-dururlar, yeyib-içərlər, birgə səfərlərə çıxarlar, qardaşdan artıq olarlar, hətta qudalıq büsatı qurarlar, amma söhbət yazı-pozuya gələndə deyərlər (özü də mütləq daldada): “Yazır ey, yazmağına yazır, amma... əşi, nəysə... Əsas odur ki, özü yaxşı adamdır”.

Bax, bu “əşi, nəysə”nin altında nələr var, nələr. Bu, o deməkdir ki, qardaşın yazdığı bir zibil deyil.

Bəstəkarların, digər sənətçilərin arasında da bənzər münasibətlərin olduğu biney-qədimdən bəllidir. 40 il küsülü qalan, bir-birini söyən, elə küsülü də ölən və ikisi də dahi olan sənətkarlarımız olub.

İstənilən başqa sənət və peşə adamlarında da vəziyyət bu cürdür. Bəzən həmkarların bir-birini çox şiddətlə tərifləməsinə baxmayın, daha səmimi ortamlarda mütləq tərifli cümlənin, ortasında bir vergül olacaq və o vergüldən sonra cümlənin “amma”yla başlayan ikinci hissəsi gələcək.

Biz beləyik və keşkə gözəgörünməz ilahi qüvvələr bu xasiyyətimizi kəsəydi.

Ona görə də “Miss Azərbaycan-2019" yarışmasının qalibi olan qızın haqqında sosial şəbəkələrdə qoparılan tufanı görmək heç təəccüblü olmadı. Bura Venesuela deyil ki, başqa cür olsun... (Venesuela gözəlləri dillə deyilir, bilirsiniz).

Kütləvi şəkildə yazılan şərhlərdən belə çıxır ki, o, ölkənin ən eybəcər qızıymış və bu gedişlə onu heç alan da olmayacaq, evdə qalacaq.

Biri qızın gözlərini bəyənmir, biri - dodağını, biri - burnunu, biri - boynunu, o biri yanağını, bir başqası - saçını, başqa biri - duruşunu, baxışını və sair və ilaxır.

Şəkilə dönüb-dönüb bir də baxırsan, görürsən ki, insafdan deyil, qız gözəldir axı, baxışları da canlıdır. Millətimizə xas (hər millətin özünəməxsus burun strukturu var - elm sübut edir) burun formamız necədirsə, onunku da o cürdür. O biri əzalar da öz yerində. Üstəlik, bu qızda bütün bunlar simmetrikdir, gözəllik anlayışının bütün kateqoriyalarına uyğundur. Boy-buxunu da ki, maşallah... Bizim deyəcəyimiz söz də yalnız o ola bilər ki, Allah sahibinə bağışlasın, xoşbəxt, bəxtəvər olsun. Vəssalam.

Yoxsa bu nə bəyənməzlikdir, bu nə paxıllıqdır?

Əlbəttə, Lütfi Zadə kimi dünyaca məşhur və fenomenal bir alimə ağız büzən, ən məşhur yazıçılarımızı biabır-dəsgah edən, ən istedadlı futbolçumuzu pisikdirən, ən fədakar hərəkatçımızı vətənpərvər olduğuna peşman edən insanlardan haqq-ədalət, insaf-mürvət gözləmək mənasızdır.

Yox, söhbət ondan getmir ki, hamı hər şeyi bəyənsin və tənqid-filan olmasın. Ona qalsa, dünyada hamının bəyəndiyi, heç kəsin ağız büzmədiyi bircə şey var -yüz dollarlıq əskinas. Yerdə qalan hər şey tənqidə açıqdır. Amma haqsız, ədalətsiz tənqid kütləvi səciyyə daşıyırsa, bu, artıq dözülməz və iyrənc olur.

İndi yəqin ki, o gözəl qızın qohum-əqrəbası, dost-tanışları onu məzəmmət edirlər: “Axı niyə o yarışmaya qatılmışdın ki, indi haqqında bu qədər pis şeylər yazırlar?” Ola bilər ki, o da oturub əlacsız-əlacsız ağlayır. Ya da bir az ötkəm qızdırsa, deyir, cəhənnəmə yazsınlar, gora danışsınlar, qadam olsun hamısının ürəyinə.

Əslində belə bir yazının sonunda müəllif üzünü xalq tutub çağırış etməlidir, “gəlin belə olmayaq, bir-birimizə paxıllıq etməyək” deməlidir. Amma bunun və ya yüz belə çağırışın heç nəyə xeyri olmayacağını bilə-bilə bu cür hərəkətlər etmək də mənasız işdir. Bizim xəmirimiz belə yoğrulub, belə də davam edəcək. Nə vaxta qədər? Onu heç İsveç və ya Yaponiya alimləri də bilə bilməz. Bilsə-bilsə yenə öz AMEA-mız bilər. Bu da quş adı dəyişdirmək deyil ki...

# Azərbaycan və Avropa Birliyi tarixi sənəd imzalamaq ərəfəsində

## Tərəfdaşlıq sazişi 95 faiz hazırdır; Bakı və Brüsseldən “Gələn ay sənədi tam razılaşdıracağıq” bəyanatı gəldi

**Aprelin 4-də Brüsseldə Avropa Birliyi (AB)-Azərbaycan Əməkdaşlıq Şurasının iclası keçirilib. İclasda Şərq Tərəfdaşlığı və Avropa Qonşuluq Siyasəti çərçivəsində Azərbaycan-AB əməkdaşlığının vəziyyəti nəzərdən keçirilib.**



Şuraya Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov və AB tərəfdən AB-nin Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə ali komissarı Federika Mogerini sədrlik edib. İclasda 2018-ci il sentyabrın 28-də qəbul edilmiş 2018-2020-ci illər üzrə tərəfdaşlıq prioritetlərinə dair fikir mübadiləsi aparılıb. Həmçinin şurada Azərbaycanda aparılan islahatlar, iqtisadi və ticari əməkdaşlıq, enerji sahəsində əməkdaşlıq, o cümlədən Cənub Qaz Dəhlizi layihəsi, nəqliyyat, təhsil, ətraf mühit kimi məsələlər, mobillik, həmçinin vizanın sadələşdirilməsi və readmissiya sazişinin icrası müzakirə olunub. Tərəflər həmçinin Dağlıq Qarabağ münaqişəsi və digər regional məsələlərə dair müzakirə aparıblar.

**Elmar Məmmədyarov və Federika Mogerini görüşün yekunlarına dair mətbuat konfransı keçiriblər. ONA-nın məlumatına görə, E.Məmmədyarov Federika Mogerini ilə böyük geosiyasi layihə olan Cənubi Qaz Dəhlizi layihəsini müzakirə etdiklərini deyib:** “Biz inanırıq ki, 2020-ci ildə bu layihə icra ediləndə və Azərbaycan sektorundan qaz Avropaya çatdıqda, bu, əməkdaşlıq üçün tamamilə yeni imkanlar açacaq. Bu layihə regionda başqa ölkələrə kimi genişlənə bilər. Xüsusilə Balkan ölkələrini nəzərdə tuturam”.

**Nazir bildirib ki, Avropa İttifaqı hazırda mövcud olan nəqliyyat dəhlizlərindən istifadədə maraqlıdır:** “Xüsusilə Bakı-Tiflis-Qars layihəsinin açılışı yeni imkanlar açır. Bu layihə regionda oyunun gedişatını dəyişir. Bu layihə Avropadan nəinki Cənubi Qafqaza, həm də Mərkəzi Asiyaya və daha uzağa yol açır. Nəqliyyat ikitərəfli əlaqələrimizin vacib tərəfidir”.

**Nazir həmçinin vurğulayıb ki, bu il Şərq tərəfdaşlığı layihəsinin 10 illiyi qeyd olunur:** “Bu layihə 100 faiz icra olunmayıb. Hələ bu çərçivədə çox imkanlar var. Bu həm Aİ, həm üzv ölkələr, həm də 6 Şərq Tərəfdaşlığı ölkəsi üçün imkanlar açır”.

**E.Məmmədyarov vurğulayıb ki, Azərbaycan AB ilə yeni tərəfdaşlıq sazişini əlaqələrimiz üçün vacib sənəd hesab edir. Bu sənəd müxtəlif istiqamətdə əlaqələr üçün yeni imkanlar açacaq:** “Sənədin 95 faizi razılaşdırılıb. 5 faizi isə qismən razılaşdırılıb. Biz hesab edirik ki, gələn ay sənədi tamamilə razılaşdıracağıq”.

**Federika Mogerini də bildirib ki, AB və Azərbaycan yeni saziş üzrə danışıqları başa çatdırır:** “Danışıqlar yekun mərhələdədir və tezliklə başa çatacaq”. O, habelə deyib ki, Avropa İttifaqı mediasiya səylərini və ATƏT-in Minsk Qrupu həmsədrlərinin təkliflərini tam dəstəkləməyə davam edəcək: “Müzakirə edilən prioritet məsələlərdən biri Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllidir. Ötən həftə Ermənistan və Azərbaycan liderləri arasında görüşün şahidi olduq. Parisdə əldə olunan razılıq və atəşkəs pozuntusu hallarının azaldılması prosesin irəlilədilməsinə və tərəflərin şərtsiz danışıqları davam etdirməsinə dair bizdə ümid yaradır”.

AB komissarı bildirib ki, tək Azərbaycan və Ermənistan vətəndaşları deyil, hər kəs davamlı sülhdən faydalanacaq. Çünki davamlı sülh bütün regionun öz potensialından istifadə etməsinə şərait yaradacaq.

**Avropa Birliyinin qonşuluq siyasəti və genişlənmə danışıqları üzrə komissarı Yohannes Hann isə bildirib ki, Azərbaycanla Avropa Birliyi arasında sazişin əldə olunması çox əhəmiyyətlidir:** “Bu, region üçün də vacib sıqnaldır, çünki Azərbaycan və Avropa İttifaqı bir çox sahələrdə yaxın tərəfdaşdır”.

**Onun sözlərinə görə, Azərbaycan və AB arasında əməkdaşlığın prioritet məsələlərindən biri iqtisadi əlaqələri gücləndirmək, Azərbaycan iqtisadiyyatının diversifikasiyası və ölkənin Dünya Ticarət Təşkilatına üzvlüyünü dəstəkləməkdir. Y.Hann vurğulayıb ki, AB Azərbaycanın ən böyük ticarət və sərmayə tərəfdaşıdır:** “Azərbaycan və Aİ arasında enerji sahəsində strateji əməkdaşlıq mövcuddur. Cənub Qaz Dəhlizini buna nümunə göstərə bilərəm”.

**Komissar əlavə edib ki, son illərdə Azərbaycan və AB arasında ətraf mühit, iqlim, nəqliyyat sahələrində də əməkdaşlıq gücləndirilib:** “Azərbaycan şimalı cənubla, şərqi qərblə birləşdirən kəsişmədə yerləşir. Ölkə Bakı-Tiflis-Ceyhan və Bakı-Tiflis-Qars kimi layihələr həyata keçirir. Avropa İttifaqı bu layihələrə, xüsusən də Bakı limanına dəstək göstərməkdə maraqlıdır”.

Qeyd edək ki, AB ilə tərəfdaşlıq sazişinin imzalanması üçün yekun sənədin razılaşdırılmasının may ayında baş tutacağı barədə bir müddət öncə AB üzrə ekspert Yeganə Hacıyeva “Yeni Müsavat”a açıqlamasında proqnoz vermişdi. Nazir E.Məmmədyarovun və F.Mogerininin Brüsseldə dünən verdiyi açıqlamalar proqnozun reallaşması deməkdir.

**Yeganə Hacıyeva “Yeni Müsavat”a şərhində bildirdi ki, AB-Azərbaycan münasibətləri tərəflərin razılaşdırdıqları proqram üzrə davam edir:** “Lakin bir müddət sizin qəzetinizə dediyim kimi, AB ilə strateji tərəfdaşlıq sazişinin imzalanması ilin ikinci yarısı imzalanacaq. Amma sazişin imzalanması üçün yekun sənədin razılaşdırılması haqqında bir sənədin imzalanması mümkündür. Yeni sənədin əksər bəndləri razılaşdırıldığı üçün, lakin bir neçə strateji bəndlər isə hələ qaldığından qarşılıqlı təkliflərin üzərində işlər gedir. Böyük ehtimalla, bu tərəfdaşlıq sazişi bu ilin payızında imzalanacaq. May ayı üçün isə ümumi razılaşdırılmış məqamların bir daha gözdən keçirilməsi, komitələrin işinin yekunlaşdırılması, razılaşdırılmış məqamlar üzrə protokolların tərtibi prosedurları yekunlaşacaq”.

**Ekspert onu da dedi ki, Azərbaycana qarşı Avropa Şurasında, Avropa Parlamentində və digər təşkilatlarda aparılan kampaniyaların heç birinin bu proqrama təsiri olmayıb: “Bütün səylərə, manеələrə baxmayaraq bu proses uğurla davam edir.** Avropa İttifaqı-Azərbaycan münasibətləri tərəflərin razılaşdırdıqları proqram üzrə daha bir mühüm mərhələni arxada qoydu. Keçirilən iclas və müzakirələrin nəticələri birmənalı olaraq Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq sazişinin imzalanmasına hazırlığın daha bir mərhələsi idi”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 71 (7241) 5 aprel 2019

# Rusiya şirkətləri Bakıya yerləşir

## Ölkələrarası iqtisadi əlaqələrin güclənməsi nə vəd edir?

**Aprelin 4-də Rusiyanın sənaye və ticarət naziri Denis Manturovun Azərbaycana səfəri başlayıb. Səfərin ilk günündə prezident İlham Əliyev rusiyalı nazirin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

D.Manturovla yanaşı, Bakıya iqtisadiyyatın müxtəlif sektorlarında, o cümlədən kənd təsərrüfatı, İKT, avtomobil istehsalı, kimya sənayesi və digər sahələrdə fəaliyyət göstərən 60-dan çox Rusiya şirkətinin nümayəndələri gəlib.

D.Manturovun səfəri çərçivəsində iki ölkənin sahibkarlarının iştirakı ilə tədbir keçirilib. Tədbirə Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev, Azərbaycan-Rusiya İşgüzar Şurasının sədri Səməd Qurbanov, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun prezidenti v.i.e. Yusif Abdullayev və Rusiya İxrac Mərkəzinin baş direktoru Andrey Slepnev də qatılıb.

**"Ölkə rəhbərlərinin siyasəti sayəsində bu gün Azərbaycanla Rusiya arasında iqtisadi-ticarət əməkdaşlığının inkişafına böyük diqqət ayrılması, bir sıra uğurlu layihələr həyata keçirilməsi çox sevindiricidir".**

**Bunu Azərbaycan-Rusiya Biznes Şurasının sədri Səməd Qurbanov Bakıda keçirilən "Rusiya sənaye müəssisələrinin Azərbaycandakı biznes missiyası" tədbirində deyib.**

**Onun sözlərinə görə, Azərbaycan və Rusiyanın biznes şuraları daim əlaqədə çalışırlar.**

"Ölkələrimizin işgüzar dairələri arasında əlaqələrin qurulması vacib istiqamətdir. Ən



perspektivli vəzifələrdən biri isə üçüncü ölkələrin bazarlarına çıxış üçün birgə layihələrin həyata keçirilməsi və birgə müəssisələrin yaradılmasıdır", - şura sədri bildirib.

Rusiya və Azərbaycan əməkdaşlıq üzrə geniş perspektivlərə malikdir.

Bunu Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev Manturovun iştirakı ilə baş tutan tədbirdə deyib.

Ş.Mustafayev bildirib ki, bu günə qədər Rusiya Azərbaycan iqtisadiyyatına 4,4 mlrd. dollar investisiya qoyub. Azərbaycana Rusiyanın yatırdığı investisiyaların məbləği 1,2 mlrd. dollardan çoxdur.

Nazirin sözlərinə görə, hazırda Azərbaycanda sənaye, tikinti, ticarət, xidmət, bank, İKT, nəqliyyat, kənd təsərrüfatı və digər sahələrdə 700-ə yaxın Rusiya kapitallı müəssisə fəaliyyət göstərir.

Rusiyalı nazirin Bakı səfəri çox ciddi müzakirələr doğurub. 5 ildir Qərbin sanksiyaları altında inildəyən şimal qonşumuzun 60-dan çox şirkətinin Bakıda yerləşməsinin, Rusiyanın ölkəmizə investisiya yatırmasının müsbət və ya mənfi nəticələrinin olub-olmayacağı yönündə müxtəlif fikirlər səslənir. Xüsusilə hər iki ölkənin sənayesinin birlikdə işlədilməsinin verə biləcəyi sonuclardan daha çox söz açılır. Rusiya tərəfindən Azərbaycana yatırılan investisiyaların gələcəkdə nələr vəd etməsi ilə bağlı səslənən fikirlər fərqlidir.

**İqtisadçı-ekspert Samir Əliyev "Yeni Müsavat"a səfəri bu cür dəyərləndirdi:** "Rusiyadan bir qrup nümayəndə heyəti gəlib və analoji proseslər əslində Azərbaycanda da gedir. Ölkəmizdən ayrı-ayrı şirkətlərin müxtəlif ölkələrə getdiklərini mətbuatdan tez-tez görürük. Belə baxanda burada qeyri-adi bir şey yoxdur. Hətta bunu normal da qarşılamaq olar. Çünki hər bir dövlət bazarlar axtarır. Rusiya bizim əsas ticarət tərəfdaşlarımızdan biridir. Ən böyük idxalatçı ölkədir. Eyni zamanda qeyri-neft ixrac etdiyimiz ən böyük ölkələrdən biridir. Bu baxımdan ticarət partnyorumuzdur. Amma istənilən halda son iqtisadi təmaslar müəyyən narahatlıqlar yaradıb. Çünki Rusiyaya ciddi sanksiyalar tətbiq olunur. Şimal qonşumuzun manevr imkanları getdikcə məhdudlaşır. Rusiyanın bazarlara çıxış imkanları da məhdudlaşmaqdadır. Əgər əvvəllər bu sanksiyalar uzunmüddətli borc bazarına çıxışla bağlı idisə, indi daha sərtdir. Təbii olaraq da belə suallar yaranır ki, bunun Azərbaycana təsirləri necə ola bilər? Hər bir halda Azərbaycana neqativ təsirləri mümkündür. Rusiya mövcud vəziyyətdən çıxış edərək çalışır ki, qonşu ölkələrlə əməkdaşlıq etsin, biznesinin müəyyən hissəsini həmin ölkələrə keçirsin. Azərbaycan da bu vəziyyətdə uğurlu təklif gələrsə, bunu dəyərləndirib faydalanmalıdır. Ancaq bir şərtlə ki, bu əməkdaşlıq gələcəkdə Azərbaycana təhlükə yaratmasın. Belə hallarda gəlir əsas məsələ deyil. Çünki biz bilmirik ki, Rusiyaya qarşı sanksiyaların növbəti mərhələsi hansı istiqamətlər üzrə olacaq. Elə sanksiyalar ola bilər ki, rus şirkətləri ilə əməkdaşlıq edən ölkələr və ya şirkətlər Amerika, Avropa şirkətləri ilə əməkdaşlıq edə bilməsinlər. Yaxud da onlar bank hesablarından istifadə edə bilməsinlər. Bu tipli daha sərt məhdudiyyətlər qoyula bilər. Amma bu gün belə bir narahatlıq yoxdur. Lakin qarantiya vermək də mümkün deyil ki, sabah belə bir qərarlar verilməyəcək. Açığı mən çox istərdim ki, Azərbaycan daha çox Avropa bazarlarına üz tutub orada yer tutsun. Məsələ burada odur ki, bizim Avropa bazarlarına çıxmaq potensialımız olsa da, imkanlarımız məhduddur. Söhbət keyfiyyətli məhsul istehsalından gedir. Avropa bazarlarına çox məhdud şəkildə çıxırıq. Amma Rusiyaya daha rahat çıxa bilirik. Bu bazar da kifayət qədər böyükdür. Bir çox ölkələr də bu bazara çıxmaq istəyir. Bundan istifadə etmək yaxşıdır, amma milli məsələləri də mütləq nəzərə almaq lazımdır ki, gələcəkdə problemlərlə üzləşməyək".

**İqtisadçı-ekspert Rusiyadan Azərbaycana yatırılan investisiyalara da toxundu:** "Son məlumatlar onu göstərir ki, Azərbaycana qoyulan investisiyalarda azalma var. Buna da təəssüflənməmək mümkün deyil. Qoyulan investisiyalarda qeyri-neft sektoru üstünlük təşkil edirdi. Amma son vaxtlar bu sektora da qoyulan investisiyalarda azalmalar müşahidə olunur. Bu da ölkə iqtisadiyyatı üçün arzuolunan hal deyil. İnvestisiya qoyulan ölkələrə şərait yaratmalıyıq ki, gəlib yatızdırsınlar. Burada da qeyri-qanuni pullar istisna olunmalıdır. Rusiya əgər investisiya qoymaq istəyirsə, bu müsbət dəyərləndirilməlidir. Məncə, burada problem də yoxdur".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# ABŞ-ın yeni sanksiyaları Azərbaycanı da vura bilər

## Rusiyaya qarşı gözlənilən yeni sanksiyaların Bakıya mümkün təsirləri...

**ABŞ Senatında respublikaçılarla demokratların nümayəndələri birlikdə Rusiyaya qarşı ABŞ-dakı seçkilərə güman edilən müdaxiləyə cavab olaraq yeni məhdudiyyətlər paketi hazırlayıblar.**

"Deter Act" kimi məşhur olan qanun layihəsinin məqsədi "ABŞ-da seçkilərə xarici müdaxilənin yolverilməzliyi"dir. Bu, aprelin 3-də dərc edilmiş sənəddən bəlli olur. Virtualaz.org Rusiya mətbuatına istinadən xəbər verir ki, qanun layihəsi Rusiyanı Çin, İran, Şimali Koreya və senatorların fikrincə, ABŞ-dakı seçkilərə təsir etmək istəyən digər ölkələrlə eyni sıraya qoyur. Lakin Rusiyaya qarşı sanksiyalara sənədin xeyli böyük hissəsi həsr olunub. Düzəlişlərə əsasən, ABŞ konkret banklara və energetika şirkətlərinə qarşı məhdudiyyətlər tətbiq edə bilər. Zərbə altına "Sberbank", VTB, "Qazprombank", VEB ("Vneşekonombank"), "Rosselxozbank", həmçinin "Qazprom", "Rosneft" və "LUKoil" düşə bilər. Layihədə həmçinin Rusiya ilə əlaqəli dağ-mədən, kosmik və digər sahə müəssisələri qeyd olunur ki, onların adları çəkilmir.

Bundan əlavə, amerikalılar Rusiya suveren borcu, dövlət istiqrazları və Rusiya hökumətinin nəzarət etdiyi şirkətlərin borc öhdəliklərinin ABŞ yurisdiksiyası altına düşən tranzaksiyalarını məhdudlaşdırmaq niyyətindədirlər. Həmçinin, şəxsi sanksiyalar altına düşmüş "yüksək



vəzifəli rusiyalı siyasi fiqurların və top-menecerlərin" aktivlərinin bloklanması və dondurulması tətbiq olunacaq. Mülkiyyətin müsadirəsi haqqında bu dəfə söhbət getmir.

Lakin sənəddə sanksiyaların dayandırılması da nəzərdə tutulur. "Minimum iki prezident seçkiləri dövrü" ərzində kəşfiyyat, FTB və Milli Təhlükəsizlik Agentliyi seçki prosesinə müdaxilənin olmamasını aşkar etsələr, prezident sanksiyaları qüvvədən düşmüş elan edə bilər. Həmçinin qeyd olunur ki, sanksiya təzyiqi Avropa İttifaqı ilə əməkdaşlıq şəraitində tətbiq olunmalıdır.

Qeyd edək ki, siyahıda adı keçən Rusiya banklarının bir neçəsinin Azərbaycanda filialları fəaliyyət göstərir. Eyni zamanda məhdudiyyətlər qoyulacaq iri şirkətlərin də bir neçəsinin Azərbaycanda fəaliyyəti mövcuddur. Bəs görəsən, Rusiyanın üzləşdiyi sanksiyaların Azərbaycana təsirləri necə ola bilər? Azərbaycanla Rusiya arasında əməkdaşlığın əsasən müdafiə sənayesi sahəsində olduğunu deyən ekspertlər bildirirlər ki, daha önəmli olanı Azərbaycan Neft Fondunun Rusiyanın maliyyə bazarına yerləşdirdiyi investisiyalarla bağlıdır. Ona görə də Rusiyanın üzləşdiyi sanksiyaların Azərbaycanla sıx əməkdaşlıq olunan hər iki sahəyə təsiri ola bilər.

Məsələn, bu cür sanksiyalar "VTB Bank-Azərbaycan"ın fəaliyyətinə mənfi təsir göstərə bilər. Dövlət Neft Fondunun da səhmdarı olduğu "VTB Bank"dakı fəaliyyətinə təsir göstərməsi mümkündür.

Ekspertlər həmçinin hesab edirlər ki, sanksiya və məhdudiyyətlərin Azərbaycana təsirlərindən biri Rusiyada yaşayan soydaşlarımızın qazanclarının azalması və ölkəmizə daxil olacaq nağd vəsaitlərin bir az da aşağı düşməsi ola bilər. Rusiyadan Azərbaycana pul köçürmələrin həcmi yüz milyon dollarlarla ölçülür. Əlbəttə, bu vəsaitlər rəsmi qeydiyyata düşən məbləğdir. Qeyri-rəsmi Azərbaycan ailələrinə göndərilən pulun həcmi daha çoxdur. Təbii ki, bu qədər vəsait Azərbaycan iqtisadiyyatı üçün az məbləğ deyil. Odur ki, banklara məhdudiyyətlər tətbiqinin köçürmələrdə azalma olacağına da gətirib çıxarması istisna deyil.

İqtisadçıların fikrincə, azərbaycanlı iş adamlarının da yatırımlarında təhlükələr gözlənilir. Elə iş adamlarımız var ki, Rusiyada daşınmaz əmlaka, biznes obyektlərinə, müxtəlif kompaniyaların səhmlərinə sahibdirlər. Onların bizneslərinə zərbələr dəyə bilər.

Bir sözlə, Rusiyaya qarşı gözlənilən yeni sanksiyaların Azərbaycanın da xeyrinə olmadığı şübhəsizdir.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Müdafiə naziri: “Ermənistan ordusu hücuma keçsə, Tonoyanla İrəvanda görüşəcəyik..."



## Zakir Həsənov: “Bu sözləri eşidəndə ermənilərin doğrudan da hücuma keçməsini arzuladım”

**Aprel döyüşləri ermənilərlə tarixi qarşıdurmanın bir hissəsidir. Erməni xalqı yüz illərlə digər imperiyaların əlində alət olaraq türk millətinə və müsəlmanlara qarşı soyqırımlar törədib. Biz bu tarixdən nəticə çıxarmalı, onu unutmamalı və xalqımızı, millətimizi, Vətənimizi və ana-bacılarımızı müdafiə etməliyik.**

Bunu Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov AzTV-yə müsahibəsində deyib.

**Nazir bildirib ki, Azərbaycan dövləti gücləndikcə bəzi qüvvələr ermənilərdən ölkəmizə və millətimizə qarşı istifadə etməyə başlayırlar:** “1918-ci ildə ermənilərə Azərbaycan torpaqları üzərində dövlət qurmaları üçün imkan yaradıldı. Buna baxmayaraq, onlar öz dövlətini qurduqdan sonra Azərbaycana, xalqımıza və türk millətinə qarşı cinayətər törətdilər. Ona görə də biz bu tarixi hadisələrdən nəticə çıxarmalıyıq. Ermənilər hər zaman Azərbaycan dövlətçiliyinə qarşı düşmən mövqedə durublar və duracaqlar. Buna görə də biz həmrəy olmalı və xalqımızı müdafiə etməliyik. Azərbaycan hökuməti dövlətin gücləndirilməsi üçün planlı şəkildə ciddi işlər həyata keçirir. Daxili və xarici, eləcə də ordu quruculuğu istiqamətində ciddi işlər görülür. Azərbaycan gücləndikcə ermənilər daha da fəallaşmağa başlayırlar. Onlardan istifadə edirlər. Ermənilər bədbəxt millətdir. Onlar böyük dövlətlərin əlində alətə çevriliblər”.(“Report”)

**Müdafiə naziri vurğulayıb ki, aprel döyüşlərindən öncə Müdafiə Nazirliyinin zabitləri təxribatların qarşısının alınması üçün planlar hazırlayıb:** “Azərbaycan gündən-günə güclənir. İlk olaraq ölkənin iqtisadiyyatı, daha sonra isə ordusu güclənir. Prezident İlham Əliyevin Azərbaycan ordusunda həyata keçirdiyi islahatların nəticəsi olaraq ordumuz gücləndi və düşmənə sarsıdıcı zərbələr endirdi. Aprel döyüşlərindən öncə də bizim ermənilərlə toqquşmalarımız olub. Misal üçün, 2015-ci ildə ermənilər böyük itkilər verdilər. Bundan sonra onlar birləşib təxribatlar törətməyi fikirləşdilər və bu təxribatlara 2016-cı ilin aprelində əl atdılar. Məndən bəzən soruşurlar ki, aprel döyüşlərində əmri kim vermişdi? Biz hərbçi olaraq hər zaman düşmənin təxribatına hazır olmalıyıq. Bu planlar öncədən hazırlanır və təsdiqlənir. Eləcə də, həmin planlar hərbi hissələrdə müəyyən vəzifəli şəxslərə payanılır. Yəni təxribatın qarşısının alınması qabaqcadan bilinir. Bu, planlaşdırılmışdı və ümumi plan Ali Baş Komandan tərəfindən təsdiqlənmişdi”.

**Müdafiə naziri Ermənistan müdafiə naziri David Tonoyanın “sülh naminə ərazi” formulasının əvəzinə “yeni ərazilər üçün yeni müharibə” açıqlamasına da münasibət bildirib.**

**Z.Həsənov bildirib ki, hərbçilər söz güləşdirməklə məşğul olmamalıdırlar:** “Hesab edirəm ki, Tonoyan hərbçi deyil. O, rəhbərlik etdiyi ordusunun imkanlarından xəbərsizdir. Tonoyan bu sözləri Nyu Yorkda deyib erməni lobbisinin qarşısında deyir. Oraya pul dilənməyə getmişdi. Bu gün Ermənistan ordusunun Azərbaycana hücum etməsi üçün nə iqtisadi imkanı, nə silahı, nə şəxsi heyəti, nə də digər imkanları var”. Zakir Həsənov bildirib ki, bu sözləri eşidəndə onların doğrudan da hücuma keçməsini arzulayıb: “Mən onunla İrəvanda görüşərdim. Lakin onların buna imkanları yoxdur. Bütün imkanlarını yığsalar, aprelin 4-5 qatı olacaq. Mən bunu arzulayıram və gözləyirəm”.

# Generaldan ordumuz haqda böhtanlara sərt cavab

## General-leytenant Rövşən Əkbərov: “Ordudan xəbəri olmayanlar, xəbəri olub qara yaxanlar, böhtan atanlar xalqın düşmənidir”

**Azərbaycan ordusunun Birlik komandiri, Milli Qəhrəman, general-leytenant Rövşən Əkbərov ordu.az-a müsahibə verib. R.Əkbərov bildirib ki, bu günlərdə başa çatan geniş miqyaslı təlimlər də bir daha sübut etdi ki, Azərbaycan ordusu dinamik inkişaf edir. Təlimlərdə biz şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi, onun bilik və bacarıqlarının təkmilləşdirilməsi ilə yanaşı, eyni zamanda müxtəlif qoşun növlərinin qarşılıqlı fəaliyyətinin formalaşdırılmasına nail oluruq. Hər təlimin öz təyinatı var:**

“Ali Baş Komandanın göstərişi, müdafiə nazirinin rəhbərliyi ilə keçirilən budəfəki təlimlər də şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəlməsində əhəmiyyətli rol oynayıb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ordu quruculuğu məsələsini daim diqqətdə saxlayır, ona daim və hərtərəfli qayğı göstərir”.

**Birlik komandiri deyib ki, ordumuzun əldə etdiyi nailiyyətlərə qara yaxanlar fərdlərdir. Onlar həm də el arasında deyildiyi kimi, “kiçik budaqların üstündə oturub böyük budaqları silkələmək istəyən” fərdlərdir. İstər respublikamızda yaşasınlar, istərsə də xaricdə. Ordudan xəbəri olmayanlar, xəbəri olub qara yaxanlar, böhtan atanlar xalqın düşmənidir:** “Uzaqdan-uzağa ordumuz haqqında danışanlar, orduda nöqsan axtaranlar bilsinlər ki, bu, vicdana sığan hərəkət deyil. Bu, heç bir əsl azərbaycanlıya yaraşan hərəkət deyil. Bəzi saytlar belə fərdlərin qərəzli informasiyalarına yer verməklə öz nüfuzunu da nəzərəçarpacaq dərəcədə azaldır. Belə qərəzli fikirlər Azərbaycan ordusunun nüfuzuna təsir göstərə bilməz”.



General ordumuzun silah, texnika arsenalı barədə də müəyyən məlumatlar verib, eyni zamanda qeyd edib ki, elə fərdlər var bircə gün belə olsa orduda xidmət etməyib, əlinə silah almayıb. Belələrinin ordu haqqında fikir söyləməyə haqqı çatmır. R.Əkbərov qeyd edib ki, ordumuzun arsenalına müasir döyüş texnikalarının böyük əksəriyyəti-Belarusun istehsalı olan yüksək manevr və atəş gücünə malik 301 mm-lik əməliyyat-taktiki raket “Polonez B-300", İsrailin istehsalı olan 624 mm-lik əməliyyat-taktiki raket LORA, 306 mm-lik taktiki raket EKSTRA, texnika üzərində tank əleyhinə idarəolunan raket kompleksi ”Spike-ER" və daşınan tank əleyhinə idarə olunan raket kompleksi “Spike-LR”, Türkiyənin istehsalı olan 300 mm-lik taktiki raket TR-300 E “Qasırğa”, Rusiyanın istehsalı olan 300 mm-lik 9A52-2 “Smerç” (YARS), ağır odsaçan sistem TOS-1A, 203 mm-lik 2S7 “Pion-M” və 152 mm-lik 2S19 “Msta-S” özüyeriyən artilleriya qurğuları, tank əleyhinə kompleks 9K123 “Xrizantema-S”, Çexiyanın istehsalı olan 122 mm-lik yaylım atəşli reaktiv sistem-YARS RM 70 və 152 mm-lik özüyeriyən artilleriya qurğusu DANA daxil edilib. Bundan əlavə, Azərbaycan ordusunun arsenalında olan T-90S tankı, ZTR-82A, 152 mm-lik “Msta-S” özüyeriyən artilleriya qurğusu, 220 mm-lik TOS-1A “Solntsepyok” ağır odsaçan sistemi və s. son illərdə tədarük edilib: “Aldığımız müasir artilleriya sistemlərinin proqram təminatı İsrailin mütəxəssisləri tərəfindən yenilənərək ən yeni sistemlərlə təchiz edilib. Bu da öz növbəsində düşmənin REM vasitələrinin təsirini məhdudlaşdırır və asanlıqla onun üzərində atəş üstünlüyə nail olunur. Həmçinin bu döyüş texnikaları mütəmadi keçirilən irimiqyaslı təlimlərdə tətbiq edilir. Bu və ya digər texnikanın ”köhnə" olduğunu iddia edən həmin fərd texnikanın adını niyə demir?! Xalqını, dövlətini sevməyənlər olmayanları var kimi təqdim etməyi bacara bilməz. Qoy o fərdlər unutmasınlar ki, yalançı vətənpərvərliyin sonu yoxdur. Sözü ilə əməli düz gəlməyənlər gec-tez ifşa olunur. Elələri də var ki, bircə gün belə olsa orduda xidmət etməyib, əlinə silah almayıb. Belələrinin ordu haqqında fikir söyləməyə haqqı çatırmı?! Ordu quruculuğu haqqında səmərəli fikri varsa, buyursun desin".

R.Əkbərov 2016-cı ilin aprel döyüşlərini tarixi qələbə adlandırıb və bildirib ki, Azərbaycan ordusu bununla torpaqlarımızı işğaldan azad etməyə qadir olduğunu dünyaya nümayiş etdirib.

❑ **Etİbar SEYİDAĞA, “Yenİ Müsavat”**

# Milli Məclisdə qapalı iclas

## Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında fərmandan irəli gələn məsələlər müzakirə olunub

**Aprelin 3-də Milli Məclisdə İnsan Hüquqları üzrə Birgə İşçi Qrupun qapalı iclasında hansı məsələlərin müzakirə olunduğu açıqlanıb.**

İclasda iştirak edən Milli Məclisin Beynəlxalq əlaqələr və parlamentlərarası münasibətlər komitəsinin sədri Səməd Seyidov “Trend”ə bildirib ki, toplantıda bir çox məsələlər geniş şəkildə müzakirə olunub: “Xüsusilə iclasda prezident İlham Əliyevin məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında fərmanına və bu fərmandan irəli gələn məsələlərə diqqət yetirildi. Bu fərman qrupun daxilində müzakirə etdiyimiz məsələlərə böyük kömək göstərəcək”.




**S.Seyidov əlavə edib ki, iclasda bu fərmanın əhəmiyyəti yüksək qiymətləndirilib: “Bundan əlavə, Avropa Şurasında və başqa beynəlxalq təşkilatlarda gedən proseslər və insan haqları ilə bağlı məsələlər müzakirə olundu və yekunda qərarlaşdırdıq ki, biz müntəzəm olaraq yığışıb müvafiq məsələlərin müzakirəsini davam etdirək”.**

Qeyd edək ki, İnsan Hüquqları üzrə Birgə İşçi Qrupun iclasının bir hissəsi mətbuat üçün açıq olub, sonra iclas qapalı şəkildə davam etdirilib.

İclasda Azərbaycan Prezidentinin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi - şöbə müdiri Fuad Ələsgərov, Azərbaycanın İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında daimi nümayəndəsi, Azərbaycan Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər şöbəsinin İnsan hüquqlarının müdafiəsi məsələləri sektorunun müdiri Çingiz Əsgərov, şöbənin Əfv məsələləri sektorunun müdiri Kəmalə İsmayılova, daxili işlər nazirinin müavini, Baş Təşkilati-İnspeksiya İdarəsinin rəisi Fazil Quliyev, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi İlqar Cəfərov, Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəis müavini Aynur Sabitova, Azərbaycanın Avropa Şurası Parlament Asambleyasındakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, komitənin üzvü Çingiz Qənizadə, hüquq müdafiəçiləri - Novella Cəfəroğlu, Səadət Bənəniyarlı, Əvəz Həsənov, Mirvari Qəhrəmanlı və Arzu Abdullayeva iştirak ediblər.

YENİ MÜSAVAT
N 71 (7241) 5 aprel 2019

# Müxalifətlə BŞİH arasında “məktublaşma” oyunu-İlqar Məmmədov liderləri ittiham etdi

## 6 aprel mitinqinə “yox” cavabı alan Milli Şura dərhal aprelin 20-nə aksiya təyin etdi; **REAL sədri:** “”İnqilab-inqilab“ deyirdiniz, 4 dəfə mitinqə qoyulan qadağa həmin o inqilabınızı haçana qədər ertələdi?“

**Bakı Şəhər İcra Hakimiyyəti Milli Şuranın 6 aprelə təyin etdiyi mitinqə də “yox” cavabı verdi. Maraqlıdır ki, cavab bəlli olandan dərhal sonra Milli Şura aprelin 20-nə mitinq təyin edib.**

Qeyd edək ki, Bakı Şəhər İcra Hakimiyyəti müxalifətin 19 yanvar mitinqindən sonra kütləvi aksiyalar üçün heç bir müraciətə müsbət cavab vermir. Milli Şuranın fevralın 23-də və martın 2-də, Müsavat Partiyasının martın 10-da keçirmək istədiyi aksiyalara razılıq verilməyib. Həmçinin Qarabağ Komitəsinin “Qarabağ” mitinqi üçün müraciətinə mənfi cavab verilib.

Maraqlıdır ki, hər dəfə BŞİH-dən mənfi cavab alınsa da, müxalifət eyni addımı təkrarlayır.

Müxalifət qurumları ard-arda mitinqlər təyin edir, BŞİH “yox” cavabı verir, yenidən mitinq üçün müraciət olunur, yenə BŞİH-dən eyni cavab gəlir. Bəs müxalifət partiyaları cavabın necə olacağını bildikləri halda nədən durmadan mitinq qərarı verir və məktub göndərir? Bu, kağız üzərində fəaliyyət və ya fəaliyyət imitasiyasıdır, yoxsa Avropa Məhkəməsinə şikayət üçün hüququ əsaslar yaranmasına hesablanıb?





23 fevral 2019-cu il tarixdə keçirilməsi planlaşdırılan mitinqin təşkilatçıları cənab İbrahim İbrahimliyə, cənab Vahid Məhərrəmova, cənab Rövşən Əhmədliyə, cənab Eldəniz Quliyevə, cənab Nurəddin Məmmədliyə, cənab İlham Hüseynova, cənab Tofiq Yaqubluya və cənab Emil Səlimova

Sizin 15 fevral 2019-cu il tarixli birgə imzaladığınız mitinq keçirilməsi haqqında müraciətinizə Bakı Şəhər İcra Hakimiyyətində baxılmışdır.

Nəzərinizə çatdırırıq ki, Bakı Şəhər Baş Polis İdarəsinin Bakı Şəhər İcra Hakimiyyətinə ünvanladığı müraciət əsasında məlum olmuşdur ki, 19 yanvar 2019-cu il tarixdə Bakı şəhəri, Yasamal rayonu, M.Seyidov küçəsi, 3155-ci məhəllədə yerləşən Yasamal Rayon İdman-Sağlamlıq Kompleksinin stadionunda Milli Şura tərəfindən təşkil edilmiş mitinq başa çatdıqdan sonra bəzi toplantı iştirakçılarının nəqliyyatın normal fəaliyyətini, sakinlərin dincliyini pozan, ictimai təhlükəsizlik əleyhinə olan əməllər törətmələri və polisin bu hərəkətlərin dayandırılması barədə qanuni tələblərinə qarşı tabesizlik göstərmələri vətəndaşların haqlı narazılığına səbəb olmuşdur.

Həmçinin Milli Şuranın keçirdiyi mitinqlər zamanı istirahət hüquqlarının pozulduğu, yaşadıqları ünvanlara gediş-gəlişin çətinləşdiyi, habelə ticarət, iaşə, xidmət obyektlərinin iş ahənginə ciddi maneçiliklər törədildiyi ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə və hüquq-mühafizə orqanlarına vətəndaşlar tərəfindən 200-dən artıq şikayət və müraciət daxil olmuşdur.

Yuxarıda göstərilənlərə əsasən mitinq təşkilatçılarının "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsində nəzərdə tutulmuş vəzifələri yerinə yetirmək imkanında olmadıqları qənaəti yaranır.

Qeyd olunanları və "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin I hissəsini nəzərə alaraq 23 fevral 2019-cu il tarixdə Bakı şəhəri, Yasamal rayonu, M.Seyidov küçəsi, 3155-ci məhəllədə yerləşən Yasamal Rayon İdman-Sağlamlıq Kompleksinin stadionunda planlaşdırdığınız mitinqin keçirilməsini məqsədəuyğun hesab etmirik.

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev “Yeni Müsavat”a bildirdi ki, hər qurumun öz taktiki xətti mövcuddur. Hər bir təşkilat qanunla kütləvi aksiya keçirmək hüququna malikdir. Mitinq üçün müraciət edənlər də bu haqlarından istifadə etmək istəyirlər:** “Konstitusiya hüququndan istifadə təşəbbüsündə ziyanlı heç nə yoxdur. Buna söz demək olmaz. Özünü qüdrətli göstərən iqtidara sual yaranır ki, nədən mitinq keçirmək istəyən təşkilatların hüquqları təmin edilmir. Faktiki, Bakı Şəhər İcra Hakimiyyətinin konstitusiyanı pozmasına şahid oluruq. Mitinq təşəbbüskarlarına gəlincə, onlar vəziyyəti bilir və təzyiq edirlər. Uduzduqları heç nə yoxdur. Bircə əhalinin etimadı itirilə bilər. Çünki insanlar dəyişiklik istəyirlər. Burada kim təşəbbüskar olacaqsa, o da radikal təbəqənin hədəfinə tuş gələcək”.

**Yeri gəlmişkən, YAP icra katibinin müavini qafqazinfo.az-a müsahibəsində mitinq qadağası haqda danışıb. Sitat:** “Mitinq keçirmək üçün icazə verilir. Burada iki məsələ öz əksini tapmalıdır. Bilirsiniz ki, burada partiya üzvündən tutmuş sədrə kimi onlar Azərbaycan vətəndaşlarıdır. Onların təhlükəsizliyinin qorunması Azərbaycan dövlətinin və hüquq-mühafizə orqanlarının işidir. Təhlükəsizlik qaydalarına riayət edəcəklərini qabaqcadan bildirirlərsə, istənilən vətəndaş sərbəst toplaşmaq azadlığından istifadə edə bilər. Digərlərinin hüquqları pozulanda hüquqlar məhdudlaşır, yaxud da təhlükəsizlik məsələləri həll olunmayanda. Məsələn, hüquq-mühafizə orqanlarına məlumat gəlir ki, ciddi provokasiya ediləcək və məsuliyyəti Azərbaycan dövlətinin üzərinə atacaqlar. Ona görə də konkret əsaslarla mitinq komitəsinin üzvlərinə həmin sənədləri təqdim edirlər. Öhdəlik götürürlər ki, sərbəst toplaşmaq azadlığı barədə tələbləri pozmayacaqlar. Ancaq başlayandan axıra kimi o tələbləri pozurlar. Özü də qəsdən pozurlar ki, polis müdaxilə etsin. Yalandan bəyanat verirlər ki, 60 nəfər haradasa saxlanılıb. Onların nümayəndələri mitinqə gəlmək istəmir. Soruşanda deyirlər ki, polis qoymadı mitinqə gələk”.

**AXP sədri Pənah Hüseyn isə bildirdi ki, mitinq üçün müraciətlər, sadəcə, müraciət xatirinə edilən müraciətlər deyil, yürüdülən siyasətin bir tərkib hissəsidir. Mitinqlərlə bağlı müraciətlərə mənfi cavab verilməsinə baxmayaraq, müraciətlərin edilməsi sistemli və ardıcıl siyasətin aparılmasını özündə əks elətdirir:** “Hər dəfə müraciət edildikdən sonra müəyyən hazırlıq işləri aparılır, təbliğat gedir, fəallaşma olur. Yəni müəyyən bir xətt davam etdirilir. İkincisi, hər dəfə mitinq üçün müraciətlər və müraciətlərə cavablar qeydə alınır, ölkədə ümumi siyasi vəziyyət haqqında dəyərləndirilmə aparılması üçün bu məqam istifadə olunur. Bu cür vəziyyətin davam etməməsi üçün istər hüquqi müstəvidə, istərsə də siyasi təbliğat istiqamətlərində iş aparılır”.

**P.Hüseyn hesab etmir bu vəziyyət sonsuza qədər davam edəcək:** “Keçən ilin 29 sentyabr mitinqindən sonra Bakı Şəhər İcra Hakimiyyəti Qarabağ Komitəsinin mitinq üçün üç müraciətinə mənfi cavab vermişdi. Lakin Milli Şuranın 19 yanvar mitinqinə razılıq verildi. Yəni nəhayət, bir gün mitinqə icazə verilir və veriləcək. Əgər bu vəziyyət-yəni mitinq üçün müraciətlərə ard-arda yox cavabları olacaqsa, razılaşdırılmamış aksiyaların meydana gəlməsi labüddür. Məncə, mitinqlərə icazə verilməmə prinsipi davam etdiriləcəksə, bu vəziyyət aylarla davam eləməyəcək və icazəsiz aksiyaların gündəmə gəlməsi labüd olacaq. Eyni zamanda məsələ məhkəmə müstəvisinə də çıxarılır və çıxarılacaq”.

**Bu arada REAL Partiyasının sədri İlqar Məmmədov müxalifətçiləri tənqid edib. İ. Məmmədov sosial şəbəkədə qeyd edib ki, 8 aydır ona qarşı təbliğat aparılır:** “Deyirdim sizə, gedək seçkiyə, görək insanları səslərin müdafiəsinə səfərbər edə bilirikmi. Dediniz ki, yox e, biz meydanlardan birbaşa hakimiyyətə gələcəyik. 8 aydır mənə qarşı vicdansız təbliğat apardınız ki, biz inqilab eləmək istəyirik, İlqar Məmmədov imkan vermir. Yaxşı, "inqilab-inqilab" deyirdiniz, 4 dəfə mitinqə qoyulan qadağa həmin o inqilabınızı haçana qədər ertələdi? Amma qapılarımız yenə də açıqdır. seçki məsələsində əməkdaşlığa hələ də tam hazıram və bir daha dəvət edirəm”.

❑ **E.SEYİDAĞA, “Yeni Müsavat”**

# Musa Yaqubun müalicəsinə kömək etməyən AYB-ni suçlamasına reaksiya

## **Rəşad Məcid:** “Ola bilər ki, maddi imkan olmayıb”
## **Seyran Səxavət:** “Ona yalnız Allah kömək edə bilər”



**Son vaxtlar ağır xəstəlikdən əziyyət çəkən tanınmış şair, sabiq deputat Musa Yaqub səhhəti, AYB ilə münasibətləri ilə bağlı bakupost.az-a qısa müsahibə verib. M.Yaqubun sözlərinə görə, səsi çıxmır, ayağı qalxmır ki, yerisin. Şair xəstə yatağında yatdığı zaman müalicəsinə Azərbaycan Yazıçılar Birliyi, birliyin sədri, xalq yazıçısı Anarın dəstək olub-olmaması sualını belə cavablandırıb:**

“Yox, mən özüm də müraciət etdim, amma etmədilər. Dedim, məni Türkiyəyə göndərin, göndərmədilər. Dedilər, gərək icra başçısı desin, sonra kömək edək. Qorxdular. Anar bütün tədbirlərimdə iştirak edib, bircə bu işdə yox, qorxub. Dövlət də kömək etmədi. Bütün xərclərimi özüm çəkmişəm. Mənə prezident təqaüdü də verməyiblər. Mən daha Xalq şairi adını istəmirəm. Versələr də götürməyəm. Sabah-biri gün ölürəm, indi neynirəm o adı?”

**AYB sədri, yazıçı Anar deyib ki, Musa Yaquba həmişə yüksək münasibət göstərmişik, hörmətini gözləmişik:**

“AYB-də Musa Yaquba münasibət həmişə yüksək olub. Onun yubileyini də qeyd eləmişik. İndi nə istəyir, xəbərim yoxdur”.

**AYB katibi Rəşad Məcid “Yeni Müsavat”a bildirdi ki, M.Yaquba həmişə böyük hörmət olub:** “Türkiyəyə müalicəyə göndərməyə, görünür, maliyyə olmayıb. Yazıçılar Birliyinin elə böyük maliyyəsi yoxdur. Ona prezident təqaüdü, xalq şairi verilməsi ilə bağlı təqdimat olub, Musa müəllimin buna haqqı var, böyük şairimizdir.

Mən ona cansağlığı arzulayıram, Anar müəllimlə həmişə münasibətləri yaxşı olub. Sadəcə, ola bilər ki, iqtisadi imkan olmayıb. Amma imkan yaranarsa, köməklik göstərilər".

**Yazıçı Seyran Səxavət M.Yaqub barəsində dedi ki, onun ruhu sağlamdır:** “Musa mənim əziz, doğma bir yerimdir-yuvamdır, elə bilirəm hamınız belə düşünürsünüz. Amma gəlin onu rahat buraxaq. Allah ona cansağlığı versin, ömrünü uzatsın. Çünki o, gündəmdən uzaqda uca bir adamdır. Ona yalnız Allah kömək edə bilər, artıq bəndələrin əlindən heç nə gəlməz”.

Məlumat üçün bildirək ki, Musa Yaqub 1937-ci il mayın 10-da İsmayıllının Buynuz kəndində anadan olub. 1970-ci ildən AYB-nin üzvüdür. 1995-2000-ci illərdə deputat olub.

Bakıya köçəndən sonra Azərbaycan Yazıçılar İttifaqında bədii ədəbiyyatı təbliğ bürosunda direktor müavini, “Azərbaycan” jurnalında poeziya şöbəsinin müdiri vəzifəsində çalışıb.

Ədəbi fəaliyyətə 1957-ci ildə “Azərbaycan” qəzetində çap olunan “İki qəlb, iki dünya” poeması ilə başlayıb. Hazırda Parkinson xəstəliyindən əziyyət çəkir.

2009-cu ildə M.Yaqubun həyat yoldaşı rəhmətə gedib. “Azərbaycan” jurnalında şairin həyat yoldaşının ölümünə həsr etdiyi silsilə şeirlər çap edilmişdi.

O şeirlərdən göründü ki, artıq Musa Yaqub yaradıcılığında həm intonasiya baxımından, həm əhval baxımından sanki tamam başqa bir mərhələ başlayıb. Bu günə qədər də Musa Yaqub həmin əhval-ruhiyyənin şairidir.

**Elə son müsahibəsində də şair 3-4 gün əvvəl şeir yazdığını bildirib:** “Mövzusu beləydi ki, evin içində oturub evə təlesirdim. Bütün otaqları axtardım, yoldaşımı tapmadım. Yəni məhəbbət mövzusu”.

❑ **Emil SALAMOĞLU “Yeni Müsavat”**



# Qaynar xətt

Zamin HACI
zaminhaci@gmail.com

“Qəlyandan bir qullab alan jandarm masanın arxasından qalxıb Serapiona yaxınlaşdı, ona düz və qəzəblə baxıb kəskin səslə bağırdı: - Kimsən sən? Nədir axı bu? Niyə belədir? Bu nə deməkdir? Niyə cavab vermirsən? Tabe olmursan? Özgənin pulunu götürmək? Sus! Cavab ver! Danış! Cavab ver!”

***(Anton Çexov, “Məhkəmə” hekayəsindən)***

**Çılpaq videosu yayılan qızlardan birinin xalqa müraciətini oxudum, məncə, biz onları artıq siyasət aləmində, mənəviyyat və mətbəx verilişlərində, debatlarda, başqa tədbirlərdə görməyə hazır olmalıyıq. Elə ağlamalı mətn yazmışdı ki, Azərbaycan Yazıçılar Birliyinin qadın şairələr klubuna üzv seçilməsə biz Anar müəllimi də qınamalıyıq. Səngəçal-Ələt dairəsindən deputat qoyulması isə günün tələbidir, ümid edirəm seçki komissiyasının sədri Məzahir Pənahov xalqın səsini eşidəcəkdir. Çox gizli, korrupsioner məmurlardan, deputatlardan fərqli olaraq xalqımız o qızların hər bir yerini görmüşdür. Bundan yaxşı şəffaflıq, doğmalıq, məhrəmlik olarmı? Halbuki adam var, heç öz bədənini çılpaq görməyibdir, hədisə əsasən hamamda paltarlı çimir, çün, deyir, adam hamamda lüt olanda ona mələklər baxırmış. Biz gərək həmişə dinimizi əziz tutaq. Sözgəlişi, dünən uşağı apardım bərbərə, dedim bunun başını “poluboks” qırx. Qardaş uşağı qırxanda qəfil ağlıma gəldi ki, ey dadi-bidad, bəlkə bu cür saç dinimizə görə haramdır? (Ən doğrusu, “həramdur” yazılmalıdır, ancaq yola verin). Açdım interneti, gördüm bu sual xeyli zəhmətkeşimizi indiyəcən narahat edibdir, forumlarda, dini-mənəvi saytlarda həmən temada sual-cavablar vardır. Sən demə, saçın böyrünü ağartmaq, üstünü qara saxlamaq ki, buna el arasında “poluboks stili” deyirlər, ona dinimiz icazə vermir. Sitat: “Həddindən artıq ağartmaq bəyənilmir. İbn Ömərin (radıyəllahu anhumə) rəvayətinə görə, Allah Rəsulu (salləllahu əleyhi və səlləm) bir uşağın saçının bir hissəsinin taraş edildiyini, digər qisminin olduğu kimi qaldığını gördü. Dərhal bunu qadağan etdi və belə buyurdu: ”Ya hamısını taraş edin, ya da hamısını olduğu kimi saxlayın!" (Əbu Davud “Təraccul”, 14).**

Həmçinin “Rəsulullah (salləllahu əleyhi və səlləm) başın bir qismini taraş edib, digər qismini saxlamağı qadağan etmişdir”. (əl-Buxari: “Libas”, 72; Muslim “Libas”, 72).

Heyf ki, bunu oxuyub bitirəndə, baxdım, bərbər uşağın saçını artıq kafir formasına salıbdır. Ta nə etmək olar. İndi gərək qalın papaq qoysun, poluboksu görünməsin. Bəzi müsəlman ölkələrində uşağı belə qırxan dəlləklərin başını kəsirlər, biləsiniz.

Gör o qızın video-müraciəti bizi hansı mənəvi temalara sövq elədi, Allah hamının mənəviyyatını artırsın, ilahi, amin. İndi keçək islahatların başqa qoluna.

Bildiyiniz kimi (artıq boynunuza qoydum, özünüzü elə aparın guya bilirdiniz), hökumətimiz məhkəmə-hüquq sahəsində islahatlara da start verdi. Hamı intizarla bunu gözləyirdi. Doğrudur, kreditlər, siyasi dustaqlar, minimum əmək haqqı, dükanı yananlar, evi dağılanlar və sairə üzrə islahat paketi çoxdan təqdim olunmuşdur, müəyyən işlər görülmüşdür. Ancaq millət ən çox məhkəmə-hüquq islahatlarının olmasını istəyirdi, çünki ədalətsiz heç bir iş görmək mümkün deyildir. Nə qədər ona-buna yardım elə, zərərçəkənin barmağına “piş” elə - xeyri yoxdur, mütləq qanunların aliliyi qorunmalıdır. O Türkiyədə Atatürkün adından hər yerə vurulan şüarda deyilən kimi: “Ədalət mülkün təməlidir”. Bir dənə də afyorizm var, deyir, cəmiyyət iki halda korlanır, əgər cəza varsa, cinayət yoxdursa, ya da cinayət varsa, cəza yoxdursa. Təəssüf ki, bizdə bu iki halın ikisinə də rast gəlinmir. Məhz bu baxımdan məhkəmə-hüquq islahatları çox yaxşı oldu.

İslahatın əsas bəndlərindən biri budur ki, indən belə bizdə məhkəmənin də qaynar xətti olacaqdır. Hakim səndən rüşvət istəsə, buyur, zəng elə, şikayətlən, ağla, zarı. Sonra məhkəmə-hüquq şurası, Ədliyyə Nazirliyinin zəhmətkeşləri hakimin qulağını dartıb uzatsınlar. Zarafat edirəm, əşi, bizdə qanunsuz hökm çıxaran hakim qırmızı kitaba düşmüş bəbir kimi nadir canlıdır. Dağda-zadda görürsən fototələ qururlar, bəbir ildə bir dəfə gəlir o kameraya baxıb, quyruğunu bulayıb gedir. Bəs biz ildə bir dəfə haradasa qanunun maddəsini yüngülvari bulamış hakimdən şikayət edəcəyik deyə, qaynar xətt yaratmağın mənası var idimi? Var idi. Çünki bu, şikayətdən çox xalqımızın musiqi zövqünü formalaşdırmağa lazımdır. İzah edim.

Misal üçün, bizdə Səhiyyə Nazirliyinin qaynar xəttinə zəng vursan, uzun müddət Motsartın “Fiqaronun toyu” operasından parçalar dinləmək mümkündür. Adam sağalır, heç axırda kimisə tapsa, şikayət də eləmir. Yaxud Baş Prokurorluğun qaynar xətti Alfred Şnitke-nin 1-ci simfoniyasını, Qida Təhlükəsizliyi Agentliyinin qaynar xətti Edvard Qriq-in “Dağ kralının mağarasında” musiqi parçasını, Təhsil Nazirliyinin qaynar xətti isə Rixard Vaqner-in “Valkiriyaların uçuşu” melodiyalarını dinləmək üçün yaradılıbdır, başqa hər hansı pis məqsəd güdülmür. Mədəniyyət Nazirliyimizin qaynar xətti isə öz milliliyi ilə seçilir, əgər ora zəng vursanız, istedadlı bəstəkarımız Firudin Allahverdinin “Tar və ansambl üçün ”Sıralama" əsərinə qulaq asarsınız.



# Türkiyə dilemma qarşısında: “S- 400”, yoxsa NATO?





**Elxan Şahinoğlu:** “Amerika və Avropadan raketlər almaq istəyəndə satmadılar, o da məcbur qalıb Rusiyadan aldı”
**Hikmət Hacızadə:** “Bu gərginlik NATO və ABŞ-ın Şərq siyasəti ilə bağlıdır, Ankaranın maraqlarına uyğun gəlmir”

**Aprelin 4-də Vaşinqtonda NATO-ya üzv ölkələrin XİN rəhbərlərinin toplantısı keçirilib. “Yeni Müsavat” xəbər verir ki, bir gün əvvəl isə Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu ABŞ dövlət katibi Mayk Pompeo ilə görüşüb. 40 dəqiqə davam edən görüşdə tərəflər Türkiyə-ABŞ münasibətlərini müzakirə edib.**

“Türkiyəni Rusiyanın “S-400” sistemlərinin alınmasından imtina etdiyi təqdirdə NATO üzvü kimi görmək istəyirik” - bunu ABŞ-ın NATO-dakı daimi nümayəndəsi Key Beyli Hatçison deyib.

Onun sözlərinə görə, ABŞ administrasiyası Türkiyənin NATO üzvü kimi qalmasını istəyir, amma bunun üçün ölkə öz ərazisində “S-400" sistemlərinin yerləşdirilməsinə imkan verməməlidir.

O, ABŞ-ın bu qərarını onunla izah edib ki, rus sistemləri vasitəsilə F-35 bombardmançılarının məlumatları ötürülə bilər. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu “S-400" zenit raket kompleksləri barədə açıqlama verib.

“S-400” məsələsi artıq bitmiş bir anlaşmadır. ABŞ son dəfə ”Patriot" təklifi etsə də, satışın həyata keçiriləcəyinə zəmanət yoxdur", - Çavuşoğlu deyib.

4 aprel 1949-cu ildə qurulan NATO-nun hazırda 29 üzvü var. Onlardan biri də Türkiyədir ki, 1952-ci ildə bu alyansa üzv olub.

Zaman-zaman Qərb bloku və NATO-nun bu ölkə ilə aralarında soyuqluq yaranıb, amma Ankara qurumun tərkibində fəaliyyətini davam etdirir.

24 noyabr 2015-ci ildə rus təyyarələrinin Türkiyə hava məkanını pozması və bu təyyarənin vurulma prosesi zamanı Türkiyə NATO ölkəsi olsa da, NATO tərəfindən dəstəklənmədi.

ABŞ Türkiyəni hər tərəfdən görünməyən əllərlə sıxır, onu idarə olunan hala gətirmək istəyir. Bu belədirsə, o zaman onlar təkcə ölkənin çevrəsində deyil, içində də işləyirlər.

Heç kimə sirr deyil ki, NATO-nun gizli təyinatları, ictimaiyyətə açıqlanmayan strukturları var və onlar da yerləşdiyi ölkələrdə boş yerə gəzib dolaşmaqla məşğul olmurlar.

Türkiyənin NATO-dan çıxması işğalçı niyyətli dövlətləri həvəsləndirə bilər. Bu gün Türkiyədə yerləşən NATO hərbi bazaları kəşfiyyat işlərini yerinə yetirir. NATO və ya ABŞ hərbi bazalarının Türkiyədən çıxarılması, Türkiyənin isə bu qurumdan getməsi ölkəni bölmək istəyən qüvvələrin maraqlarına uyğun ola bilər. Baxmayaraq ki, NATO praktikasında üzvlükdən çıxardığı bir ölkə yoxdur.

Hərçənd Çexiyanın Xüsusi Xidmət Orqanlarıyla İş üzrə keçmiş naziri Yaroslav Başta deyib ki, NATO müdafiə təşkilatından siyasi təşkilata çevrilib.

Türkiyə Əfqanıstandan Kosovoya, Bosniya-Herseqovinadan Afrika buynuzuna qədər NATO-nun bir çox əməliyyatlarında aktiv rol oynayır. O, İzmirdə NATO-nun quru komandanlığına, Kürəcikdə strateji cəhətdən önəmli olan radar sistemlərinə ev sahibliyi edir. Eyni zamanda müttəfiqlərinə İncirlik və Konya bazalarını NATO əməliyyatları üçün istifadə etməyə imkan verir, Yaxın Şərqdə terrorçulara qarşı aktiv şəkildə döyüşür.

Türkiyə bu gün NATO əməliyyatlarında səhnə alan ən aktiv 5-ci, NATO büdcəsinə ən çox dəstək verən 8-ci ölkədir.

Bu dəqiq olaraq biryollu əlaqə deyil. Türkiyə NATO-ya üzvlükdən çox fayda qazanıb. NATO heç vaxt Türkiyəyə Birinci (1991) və İkinci (2003) İraq müharibələri dövründə həmçinin Suriyadakı davam edən vətəndaş müharibəsi ərzində anti-ballistik raket sistemləri verməkdə tərəddüd etməyib. Türkiyə alyansın dəstəyini qazanmaq üçün 4 dəfə NATO nizamnaməsinin 4-cü maddəsini işə salıb.

**Siyasi analitik Elxan Şahinoğlu “Yeni Müsavat”a bildirdi ki, Türkiyə çətin duruma sürüklənib. Onun sözlərinə görə, Amerika ilə münasibətlərdə soyuqluq yaranıb:** “Türkiyə Amerika və Avropadan raketlər almaq istəyəndə satmadılar, o da məcbur qalıb Rusiyadan aldı. Hansı NATO ölkəsi Rusiya ilə əməkdaşlıq edirsə, onlara elə gəlir ki, bu siyasət alyansa qarşı yönəlib.

İndi ultimatum irəli sürürlər ki, ya biz, ya Rusiyanı seç. Ankara indi “S 400” silahlarından imtina etsə, Moskva deyəcək ki, mənimlə oynayırsan? Bu da münasibətlərə zərər gətirəcək.

Onsuz da təyyarə qalmaqalı iki ölkə arasında ciddi problem yaratmışdı, Türkiyənin turizminə zərbə dəymişdi. O baxımdan inanmıram ki, Ankara “S 400”dən imtina edəcək".

**Ekspertin fikrincə, Türkiyə belə təzyiq altında qərar verməyəcək:** “Amma NATO-dan çıxmasına inanmıram. Sadəcə, Qərblə Rusiya arasında balans saxlamaq çətin olacaq. Türkiyəni dilemma qarşısına sürükləyirlər.

Çünki Ankaradan olsa, həm Rusiya, həm NATO-dan silah alar. Məqsəd Türkiyəni zəiflətməkdir ki, Qərbin planlarından biridir. Böyüyən Türkiyənin Rusiya ilə əməkdaşlığı Qərbin maraqlarına cavab vermir.

Çünki Türkiyə regionda əsas oyunçudur və bu proseslər bizə də, türkdilli dövlətlərə də müəyyən problemlər yaradır".

**Politoloq Hikmət Hacızadə Türkiyənin NATO-dan çıxarılması təhlükəsini indiki halda real görmür:** “Sabah nə olacağını proqnozlaşdıra bilmərik. Lakin NATO tarixində üzvlükdən çıxarılan ölkə olmayıb.

Yalnız Yunanıstanda “Qara polkovnik”lərin diktatura rejimi dövründə bu ölkə ilə münasibətlərdə böyük problemlər, böhran yaranmışdı. O zaman Avropa və Avroatlantik strukturlarla kəskin problem yaranmışdı".

**H.Hacızadənin fikrincə, NATO-nun Ankaranı sıxışdırması Şərq siyasətinə görədir:** “Bu gün gərginlik var, hamısı NATO və ABŞ-ın Şərq siyasəti ilə bağlıdır. Bu da Türkiyənin maraqlarına uyğun gəlmir. Ona görə də Ankara onlara qulaq asmır. Çünki Amerika Türkiyəyə silah satmaqdan imtina edir, məqsədlərdən biri Qərbin Türkiyənin yanında Kürdüstan dövləti qurmaq istəyidir”.

**❑ Emil SALAMOĞLU**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 71 (7241) 5 aprel 2019

**"Ermənistanla müharibə bitməyib, müharibənin yalnız birinci mərhələsi başa çatıb". Azərbaycan prezidenti İlham Əliyev bunu iki gün öncə hərbi hissələrin birində etdiyi çıxışında bir daha bəyan edib. Bu da ən əvvəl o deməkdir ki, Azərbaycan sonsuzadək işğal rejiminə, təcavüzkar tərəfin siyasi kaprizlərinə dözməyəcək. Müasir bahalı silah-sursatları, modern döyüş sistemlərini də Bakı yalnız vitrinə qoymaq və ara-sıra hərbi paradlarda və ya təlimlərdə nümayiş etdirmək üçün almayıb.**




# ABŞ-dan jest - Azərbaycanı hədələyən erməni naziri Pentaqon pərt etdi

## Ermənistanın dünyanı Qarabağ yalanına inandırmaq siyasəti fiaskoda; klassik erməni məkri, yoxsa nonsens: Paşinyanın güc naziri Amerikadan müharibə bəyanatı verir, arvadı isə elə oradanca sülh bəyanatı...

Azərbaycanın müdafiə naziri Zakir Həsənovun "4 günlük" aprel müharibəsinin ildönümü ilə bağlı düşmən tərəfə ünvanlı xəbərdarlıq xarakterli çıxışı da eyni hədəfə hesablanıb: nə qədər gec deyil, işğalçı tərəfi mifik "qələbə" eyforiyasından çıxarıb konstruktiv mövqeyə gətirməyə nail olmaq, əks halda, müharibə qaçılmazdır.

*****

"Azərbaycan ordusunun kiçik bir hissəsi 2016-cı ilin aprelində 3 gündə Ermənistan ordusunu darmadağın etdi". Bunu Zakir Həsənov AzTV-yə müsahibəsində bildirib. "Dördüncü gün ermənilər bütün gücünü bir istiqamətdə toplayaraq hücüma keçmək istədilər. Orada da bir nəticə əldə edə bilmədilər. Əksinə, məğlubiyyətə uğradılar. Onlarda heç bir güc yox idi. Bu da təbii idi. Çünki istər demoqrafiq, istər iqtisadi, istərsə də hərbi baxımdan Azərbaycanla ayaqlaşa bilmirlər", - hərb naziri vurğulayıb.

**Z.Həsənov iki ölkənin hərbi və döyüş göstəricilərindəki fərqə diqqət çəkərək bildirib ki, Azərbaycan aprel döyüşlərində cəmi bir tank itirib, o da minaya düşüb:** "Biz onu bərpa etmişik. Ermənilər isə 33 tank itiriblər. Azərbaycan 1 top itirib. Onların 15 topunu məhv etmişik. Aprel döyüşlərində düşmənin 300-dən çox şəxsi heyəti məhv edilib, 1000-ə yaxın yaralıları oldu. Bizdə olan məlumata görə, onlardan 500-dən çoxu ağır yaralanıb. Bütövlükdə, aprel döyüşləri Ermənistan üçün dağıdıcı oldu. Onlar illərlə öz millətlərini aldadırdılar və bütün siyasətləri Qarabağ yalanları üzərində qurulmuşdu. Ermənistanın bütün resursları Qarabağa gedirdi. Öz millətlərini aldadırdılar ki, guya Qarabağda böyük işlər görüblər, xətt yaradıblar. Bəzən mən eşidirəm ki, Azərbaycan ordusu düşmənin xəttini 1-2 saata yarıb. Mən bəyan edirəm ki, həmin xətt 18 dəqiqəyə yarılıb. 18 dəqiqədən sonra ermənilər gördülər ki, vəziyyət ağırdır və başladılar qaçmağa. Nəticədə Azərbaycan ordusu irəlilədi".

*****

Əfsus ki, bu irəliləmə çox olmadı. Bakı geosiyasi şərtləri nəzərə alaraq, Kremlin xahişi ilə antiterror əməliyyatını dayandırıdı. Ancaq bu, heç də o anlama gəlmir ki, növbəti dəfə də Azərbaycan eyni cür hərəkət edəcək və ordumuzun yürüşü dayandırılacaq.

Ermənistanın güvəni isə sözsüz ki, yalnız böyük güclərin bu müharibəni dərhal dayndıracağınadır. Təbii ki, onlar həm də xristian həmrəyliyi instinktinin işə düşəcəyinə ümid edirlər. Ancaq işə düşəcəkmi? Konkret olaraq, iki əsas vasitəçi dövlətdən biri kimi, ABŞ işğalçının "qanı"nın arasına girərmi?

O ABŞ ki, hakimiyyətə gəlməsində yardımçı olduğu Paşinyandan və komandasından Qarabağ məsələsində, bloka da məsələsində konstruktiv addımlar atmağı, o sırada Rusiya asılılığından qurtulmaq üçün qonşu Azərbaycan və Türkiyə ilə anlaşmaq yönündə təsirli səylər göstərməyi gözləyir. ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun ötən il İrəvanda verdiyi bəyanat, ardınca prezident Donald Trampın N.Paşinyana ünvanlandığı məktub bunu aydın şəkildə təsdiqləyir.

ABŞ İrəvandan ən əvvəl məhz bunu gözləyir. Paşinyan iqtidarı isə tam əks işarəli mövqe sərgiləməklə, yeni kontur addımlar atmaqla, hətta Vaşinqtonu qıcıqlandıran fəaliyyətlə məşğuldur. Ermənistan hökumətinin Rusiyaya xoş gəlmək üçün az öncə Moskvanın istəyi ilə Suriyaya hərbi-humanitar missiya göndərməsi buna bariz sübutdur. Üstəlik, müdafiə naziri David Tonoyan o vaxt bildirmişdi ki, Suriya hökuməti xahiş edərsə, Ermənistan ora hərbi kontingent də yollaya bilər. Həmin qərara görə ABŞ Dövlət Departamenti İrəvanı kəskin şəkildə qınayan etiraz bəyanatı verdi. Ermənistanı "zalım Bəşər rejiminə dəstək verənlərin yanında olmaqda" ittiham elədi. Amerikanın qəzəbi isə tezliklə soyumur.

Yeri gəlmişkən, dünən məlum olub ki, ABŞ-da səfərdə olan və oradan Azərbaycanı yeni torpaq işğalı ilə hədələyən David Tonoyanı özünün və erməni diasporun səylərinə rəğmən, Pentaqonda (ABŞ Müdafiə Nazirliyi) qəbul etməyiblər. "Ermənistan müdafiə naziri Tonoyan ABŞ-a səfəri zamanı Pentaqon nümayəndələri ilə görüşməyib". Bu məlumatı "Jamanak" qəzeti yayıb (Axar.az). "ABŞ Ermənistanın Suriyaya humanitar missiya göndərməsi qərarını hələ də həzm edə bilmir. Onlar öz münasibətlərini hər vəziyyətdə nümayiş etdirməyə çalışırlar", - deyə nəşrin xəbərində vurğulanır.

Yada salaq ki, bir qədər qabaq Ermənistanın xarici işlər Zoqrab Mnatrsakanyanın ABŞ səfəri Amerika tərəfindən ləğv edilmişdi. Halbuki həm Mnatsakanyan, həm də Tonoyan qərbyönlü kadrlar hesab olunur(du)lar...

*****

Ermənilər isə bütün bunların fonunda həyasızcasına indi həm də sülh nəğmələri oxumaqla dünyanı çaşdırmağa çalışırlar. Belə ki, Nikol Paşinyanın arvadı, "Mənim addımın" və "Təbəssümlər şəhəri" xeyriyyə fondlarının hamilər şurasının direktoru Anna Akopyan Vaşinqtona səfər zamanı ABŞ Konqresində "Qadınlar sülh naminə" kampaniyasını təqdim edib (Virtualaz.org). Erməni KİV xəbər verir ki, Akopyan azərbaycanlı anaları və qadınları da bu kampaniyaya qoşulmağa çağırıb.

"Qadınlar sülh naminə" kampaniyasını Anna Akopyan ötən il, ərinin hakimiyyətə gəlişindən sonra başladıb və ilk dəfə Moskvada təqdim edib. Daha sonra o, bir qrup rusiyalı qadını-ictimai xadimləri kampaniya çərçivəsində özü ilə birlikdə Azərbaycanın işğal altındakı ərazilərinə, qoşunların təmas xəttinə gətirib.

"Mən "Qadınlar sülh naminə" kampaniyasını irəli sürmüşəm - məqsəd Qarabağ münaqişəsinin bütün tərəflərindən olan qadınların müharibəni rədd etməsi və bütün münaqişə tərəflərində insanların həyatlarını qoruyub saxlamaq üçün səyləri gücləndirməsidir. Bizim yekun hədəfimiz Dağlıq Qarabağda və dünyanın digər qaynaq nöqtələrində sülhə nail olmaq üçün ümumdünya qadınlar şəbəkəsi yaratmaqdır" - Anna Konqresdə çıxışı zamanı deyib.

**O, Azərbaycan qadınlarını da bu təşəbbüsə qoşulmağa çağırıb.** "Biz Azərbaycan qadınlarını və analarını da bu kampaniyaya qoşulmağa, ölkələrində qərar qəbul edən şəxslərə də belə sülh çağırışı ilə müraciət etməyə çağırıram" - o deyib. "Öz uşaqlarını itirməyin əbədi ağrısını yaşayan qadınlar və analar da olmasa kim bunu edəcək? Analardan və qadınlardan başqa kim öz səsini sülh naminə qaldıracaq? Onlardan başqa kim qərarların qəbul edilməsinə təsir edə bilər?" - Akopyan sentimental ruhlu çıxışında bildirib.

*****

İşə bax, Paşinyanın naziri David Tonoyan Amerikadan müharibə bəyanatı verir, arvadı isə eyni vaxtda sülh bəyanatı. Bu nədir - nonsens, yoxsa tipik erməni taktikası?

Buradaca qeyd edək ki, Azərbaycandan Akopyanın təşəbbüsünə təbii ki, dəstək verən tapılmayıb. Əvəzində haqlı olaraq deyilib ki, əgər Anna doğrudan da sülh istəyirsə öz oğlunu Azərbaycanın işğal altındakı ərazilərinə hərbi xidmətə göndərməli deyildi və ilk növbədə Qarabağ məsələsinə dair davakar, populist və sülh səylərinə zərbə vuran açıqlamalar verən, "bir qarış da olsun torpaq qaytarmamaq" barədə danışan ərinə təsir göstərməli idi...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

## Xarici işlər nazirlərinin görüşü üç paytaxtın birində keçiriləcək

**Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin növbəti görüşü yaxın vaxtlarda Minsk Qrupu həmsədri ölkələrindən birinin paytaxtında keçiriləcək.**


Elmar Məmmədyarov

ONA-nın məlumatına görə, bu sözləri Brüsseldə xarici işlər naziri Elmar Məmmədyarov deyib.

O bildirib ki, bununla bağlı ilkin razılaşma əldə olunub: "Biz indi bir qədər fasilə etməliyik. Azərbaycan və Ermənistan prezidentləri xarici işlər nazirlərinə işi davam etdirmək tapşırığı veriblər. Çox tezliklə ikitərəfli görüş olacaq. Biz tarixi artıq razılaşdırmışıq. Ənənəyə uyğun olaraq bunu Bakı və İrəvan birgə bəyan edəcək. Lakin bu görüş həmsədr ölkələrdən birinin paytaxtında olacaq".

## "Avropa İttifaqı ATƏT-in Minsk Qrupu həmsədrlərinin təkliflərini dəstəkləyəcək"

**"Avropa İttifaqı mediasiya səylərini və ATƏT-in Minsk Qrupu həmsədrlərinin təkliflərini tam dəstəkləməyə davam edəcək".**


Federika Mogerini

ONA xəbər verir ki, bu barədə Aİ-nin Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə ali komissarı Federika Mogerini Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla birgə keçirdiyi mətbuat konfransında bildirib.

Mogerini vurğulayıb ki, müzakirə edilən prioritet məsələlərdən biri Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllidir. "Ötən həftə Ermənistan və Azərbaycan liderləri arasında görüşün şahidi olduq. Parisdə əldə olunan razılıq və atəşkəs pozuntusu hallarının azaldılması prosesin irəlilədilməsinə və tərəflərin şərtsiz danışıqları davam etdirməsinə dair bizdə ümid yaradır", - deyə o əlavə edib.

**Prezident İlham Əliyev "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalayıb.**



# Prezidentin məhkəmələrlə bağlı fərmanı-ədalət, şəffaflıq...

## Hüquqşünas Azərbaycan məhkəmələrinin simasını dəyişəcək fərmandan danışdı: "Xarici investorların ölkəyə cəlb edilməsi məhkəmə sisteminin müstəqilliyini təmin etməkdən keçir"

Fərmanla hakimlərin sayı 200 nəfər artırılacaq, sahibkarlıq fəaliyyəti ilə əlaqədar ixtisaslaşmış məhkəmələr yaradılacaq, hakimlərin maaşı yüksəldiləcək, məhkəmə iclaslarının audioyazısı aparılacaq və s.

Fərmanda həmçinin məhkəmələrin sədrlərinə, hakimlərinə tövsiyə edilir ki, məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və məhkəmələrə etimadın möhkəmlənməsindən ötrü onlar fəaliyyətlərində ədalətli olsunlar. Habelə qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun qarşısında bərabərliyi və Azərbaycan qanunlarında təsbit edilmiş ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət etsinlər.

"Bu fikir fərmana xüsusi olaraq salınıb və prezident tərəfindən hakimlərə xatırlatmadır"

**"Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı bütünlükdə müsbət sənəd adlandıran tanınmış hüquqşünas Əkrəm Həsənov "Yeni Müsavat"a deyib ki, icrası gerçəkləşərsə, mövcud durum köklü şəkildə dəyişəcək:** "Yazılır ki, hakimlər qanunauyğun fəaliyyət göstərsin. Aydındır ki, hakimlər qanunauyğun fəaliyyət göstərməlidirlər. Bu fikir fərmana xüsusi olaraq salınıb və prezident tərəfindən hakimlərə xatırlatmadır. Azərbaycan güclü prezident hakimiyyəti olan ölkədir. Prezident icra hakimiyyətini həyata keçirir, eyni zamanda da dövlət başçısıdır və dövlət başçısı kimi məhkəmə hakimiyyətinin müstəqilliyinin qarantı da prezidentdir. Hakimlərin vəzifədən kənarlaşdırılmasını parlament həyata keçirir, amma bunu prezidentin təqdimatı ilə edir. Hakimləri yol verdikləri qanunsuzluqlara, nöqsanlara görə prezident vəzifəsindən azad edə bilər".

**Əkrəm Həsənov deyir ki, verilmiş fərman məhkəmə sistemi üçün xəbərdarlıq kimi də qəbul oluna bilər:** "Azərbaycanda məhkəmə sistemi heç vaxt belə acınacaqlı vəziyyətdə olmayıb. Bundan o tərəfi yoxdur. Bu cür durum insan haqlarının təminatı üçün təhlükədir, vətəndaşları dövlətdən, hökumətdən narazı salır, həmçinin ölkə iqtisadiyyatının inkişafına ciddi əngəldir. Çünki neft erası bitib, qeyri-neft sektoru inkişaf etdirilməldir. Bu da insanları, sahibkarların hüquqlarının müdafiəsindən keçir. Sahibkarlar, xarici investorlar Azərbaycan iqtisadiyyatına pul qoymaq istəmirlər. Çünki Azərbaycanda əvvəlki gəlirlər yoxdur. Bir neçə il əvvələ qədər gəlirlər çox olduğundan Azərbaycana pul qoyurdular. İndi isə əvvəlki gəlirlər yoxdur, risklər daha da artıb. Məsələn, 2010-cu ildə xarici investor, sahibkar Azərbaycanda 50 manat sərmayə qoyub 500 manat qazanırdı. Həmin məbləğin 200 manatını məmurlara xərcləyirdi. Bu gün isə həmin gəlirlər yoxdur, hazırda 50 manat sərmayə maksimum 200 manat gəlir gətirir, risklər isə qat-qat artıb. Ona görə də bu gün heç kəs Azərbaycanda sərmayə qoymaqda maraqlı deyil. Xarici investorların ölkəyə cəlb etmə məhkəmə sisteminin müstəqilliyini təmin etməkdən keçir. Fərmanda məhkəmə qərarlarının proqnozlaşdırılan olması nəzərdə tutulur. Bu olduqca vacib məqamdır".



**Əkrəm Həsənov proqnozlaşdırıla bilən məhkəmə qərarları haqda bunları deyib:** "Fərmanın 3.2-ci bəndində yazılıb ki, məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqenin proqnozlaşdırılan olması təmin edilməlidir. Məsələn, hər bir vətəndaş, vəkil bilməlidir ki, Azərbaycan məhkəməsi borca görə vətəndaşı həbs edir və ya etmir. Xaricdə borca görə ödəniş edə bilməyən vətəndaşı tutmurlar. Ya bu yanaşma tətbiq olunmalıdır, ya da borca görə kimisə həbs edirlərsə, fərq qoymadan borcu ödəməyən hər kəsi həbs etməlidirlər. Məhkəmə hökmləri bu baxımdan proqnozlaşdırılan olmalıdır. Kimsə lüt video çəkdiyinə görə həbs edilirsə, onda belə çəkilişlər edən hər kəs məhkəmə tərəfindən həbs edilməlidir. Hər kəs üçün ümumi, bərabər əsaslı qaydaların bərqərar olması nəzərdə tutulur".

**Əkrəm Həsənov dünyada iqtisadi artım templərinə görə ilk sıralarda olan, avtoritar idarətmə qaydaları ilə tanınan Sinqapurda, Birləşmiş Ərəb Əmirliklərində məhkəmə qərarlarının proqnozlaşdırıla bilən olduğunu deyib:** "Həmin ölkələrdə bu sistem işləyir və hamı bilir ki, qoyduğu pulun məhkəmə sisteminin timsalında qarantı var. Azərbaycanda isə belə deyil. Mülkiyyətini hansısa məmur çox asanlıqla əlindən ala bilər. Fərmanda əsas məqamlardan bir neçəsi əks olunur: məhkəmə qərarlarının dərci; elektron məhkəmə-informasiya sistemi yaranmalıdır; Ali Məhkəmə vahid məhkəmə praktikasını formalşdırmalıdır; məhkəmə qərarları proqnozlaşdırıla bilən olmalıdır.

Bu gün məhkəmələr qərarlarını dərc etmirlər. Vahid məhkəmə elektron sistemi, özü də axtarış sistemi ilə fəaliyyətə başlasa, vəkil hər hansı bir maddənin pozuntusu ilə bağlı məhkəmə qərarlarını axtarıb tapacaq. Həmin qərarı öyrənib məhkəməyə təqdim edəcək, qərarın uyğun verilməsi üçün tələb irəli sürülə biləcək. Bu cür yanaşma məhkəmələrin qərarlarının proqnozlaşdırıla bilən olmasını təmin etməlidir. Bu gün eyni mahiyyətli işlər üzrə Azərbaycan məhkəmələrində çıxarılan qərarlar bir-birinə ziddir. Hər hakim istədiyi kimi qərar verir. Təəssüf, bu gün məhkəmələrdə "örtülü bazar" prinsipləri rəhbər tutulur".

### "Prezidentin Vəkillər Kollegiyasına tövsiyəsi real durumdan məlumatlı olmasından xəbər verir"

**Tanınmış hüquqşünas fərmanda Vəkillər Kollegiyasına açıq çağırışların olduğuna da diqqət çəkib:** "Fərmanda Vəkillər Kollegiyasına tövsiyə olunur ki, vəkillər korrupsiyada iştirak etməsinlər. Bu təsadüfi deyil. Prezidentin Vəkillər Kollegiyasına tövsiyəsi real durumdan məlumatlı olmasından xəbər verir. Hamı bilir ki, vəkillərin bir qismi belə işlərlə məşğul olur. Azərbaycanda çox az vəkil var ki, udduğu işlərin nəticələrini dərc edir. Ona görə belədir ki, işlərin çoxunu pulla udub. Həmin qərarları dərc etsə, vəkil də, hakim də rüsvay olar, hətta həbsə alınarlar".

### "Sahibkar deyir ki, vəkili neyləyirəm, gedib hakimlə özüm danışım"

**Əkrəm Həsənov deyir ki, bu gün vəkillər məhkəmələrin verəcəyi qərarları proqnozlaşdıra bilmir:** "Vətəndaş vəkilin yanına gəlir, düşdüyü durumu danışır və çıxarılacaq məhkəmə qərarı haqda fikrini soruşur. Vəkil vətəndaşa konkret fikir deyə bilmir. Çünki məhkəmə qərarları proqnozlaşdırılan deyil. Ona görə də vətəndaş, sahibkar deyir ki, vəkili neyləyirəm, gedib hakimlə özüm danışım. Düz də deyir".

### "Məhkəmələr prokurorluqdan qorxur"

**Tanınmış hüquqşünas deyir ki, fərman icra ediləcəyi təqdirdə Azərbaycanda ciddi, vacib məhkəmə-hüquq islahatları gerçəkləşəcək:** "Nəzərdə tutulan məsələlər həllini tapsa, hakimlərin manevr etmək imkanları olduqca daralacaq. Prezident bu məsələdə israrlıdır. Korrupsiyanın qarşısı qismən də olsa alınacaq. Prokurorluğun işlərə müdaxiləsi azalacaq. Bu gün xüsusən cinayət işlərində məhkəmələr prokurorluqdan qorxur. Fərman icra edilsə, hakimlər prokurorlara deyəcəklər ki, dediyini edə bilmir, ona görə ki, məhkəmənin səs yazısı, müvafiq olaraq məhkəmə iclaslarının protokollaşdırılması aparılır. Məhkəmə qərarı da dərc olunacaq. Yəni həmin qərar dərc olunacaqsa ictimailəşəcək, mətbuat qanunsuz, təsir altında verilən qərarı müzakirəyə çıxaracaq".

### "Hakim bilməlidir ki, rüşvət alsa, azı 15 il, hətta ömürlük həbsə gedəcək"

**Fərmanda hakimlərin əmək haqlarının, eyni zamanda məsuliyyətlərinin artırılması da nəzərdə tutulur. Əkrəm Həsənov qeyd edir ki, bu gün Azərbaycanda birinci instansiya məhkəməsində hakim ən aşağısı 5 min manat, Konstitusiya və Ali Məhkəmə hakimləri minimum 20 min manat əmək haqqı almalıdır:** "Məhkəmə işçiləri - köməkçilər, katiblər - bu adamlar ali hüquq təhsili alıblar, onların maaşı da azı min manat olmalıdır. Hakim bilməlidir ki, rüşvət alsa, azı 15 il, hətta ömürlük həbsə gedəcək. Həbsə getdisə, əfv olunmayacaq. Fərmanda məsuliyyət məsələsi də var. Hakim yaxşı maaş almırsa, işçisini, köməkçisini dolandıra bilmirsə, dəftərxana xərclərini ödəyə bilmirsə, hansı ədalətdən, rüşvətə bulaşmamaqdan danışmaq olar? Fərmanın 7-ci bəndində yazılır ki, kargüzarlığın aparılması ilə bağlı dövlət büdcəsində nəzərdə tutulmuş vəsait birbaşa hakimlərin bank hesabına köçürüləcək. Hakim bu gün dəftərxana xərcini çəkə bilmir. Məhkəmə sədrlərindən asılı vəziyyətdədir. Hakim korrupsiyaya bulaşıbsa, rüşvət alırsa, prokurordan qorxacaq, onun dediyini etmək məcburiyyətində qalacaq. Fərmanda Azərbaycan məhkəmələrində islahatların dərinləşməsi üçün olduqca vacib məsələlər nəzərdə tutulub. Məhkəmələrdə audioyazıların aparılması çox vacib məsələdir. Məhkəmələrdə vəsatətlər veririk, şahidlərin yalan danışdığını sübuta yetiririk, amma sonda məlum olur ki, verdiyimiz vəsatət protokollaşdırılmayıb, şahidin ifşa olunması, yalan danışması protokolda yer almayıb. Praktikamda belə məsələlər olub. Hakim də, prokuror da vəsatət verdiyimi bilə-bilə bunu inkar ediblər, istədikləri qərar verilib. Audioyazı aparılsa, belə hallar olmayacaq. Bu fərmanın ən yüksək nöqtəsi audioyazı ilə bağlıdır. Məhkəmələrin iç üzü açılacaq. Vəkillərin necə işlədikləri, öz işlərini görüb-görmədiyi də məlum olacaq. Bunun icrasını səbrsizliklə gözləyirəm. Hakimlər protokollarda öz bildiklərini, istədiklərini yaza bilməyəcəklər".

**Əkrəm Həsənov fərmanının icrası ilə bağlı bəzi məmurların müqavimət göstərə biləcəklərinin nəzərə alınmasının vacibliyini də vurğulayıb:** "Ona görə də çox ciddi şəkildə fərmanın icrasına nəzarət edilməli, daimi olaraq görülən işlər haqqında prezidentə məlumatlar verilməlidir. Əks halda, fərman kağız üzərində qala bilər, necə ki, ötən ilin sonunda məhkəmə qərarlarının dərci ilə bağlı verilən fərman icra edilməyib".

Qeyd edək ki, fərmanın icrası üçün 6 ay vaxt verilib. Bu müddət ərzində fərmanda nəzərdə tutulan məsələlər həllini tapmalıdır.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 71 (7241) 5 aprel 2019

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Ermənistan hərblə sülh arasında: seçim uzaqda deyil

## Vaxt udmağa çalışan işğalçı ölkənin rəhbərliyi qəfil müharibəyə tuş gələ bilər; **israilli şərhçi:** "Azərbaycanla hərbi toqquşma Ermənistanın qəti iflasına gətirəcək..."

**Son günlər Qarabağla bağlı müzakirə predmeti olan məsələlərdən biri Ermənistan rəsmilərinin müharibə ritorikasını gücləndirməsidir. Belə davakar bəyanatların xüsusən də Azərbaycan və Ermənistan rəhbərlərinin Vyana görüşündən dərhal sonraya təsadüf eləməsi maraq doğurur.**




Baş verənlər eyni zamanda işğalçı ölkənin sülh danışıqlarına həvəsli olmadığına, nizamlama ilə bağlı ən kövrək ümidləri belə, sabotaj etdiyinə şübhə yeri saxlamır. Bu radikal mövqeyin məhz baş nazir Nikol Paşinyandan qaynaqlandığının üzə çıxması qənaətimizi daha da möhkəmləndirir.

Siyasi və hərbi analitiklərin erməni yetkililərin bu qəbildən müharibə və hədə bəyanatlarına səbəbləri və mümkün nəticələri haqda özəl yanaşmaları var.

*****

"Ermənistan daxilindəki həssas ictimai-siyasi vəziyyəti nəzərə alsaq, rəsmi İrəvanın Azərbaycanı müharibəyə təhrik etdiyini düşünmürəm. Ermənistanın siyasi və hərbi rəhbərliyinə aydındır ki, yeni hərbi əməliyyatlar başlayarsa, müharibə uzunmüddətli olmayacaq. İndi uzunmüddətli müharibələrə ehtiyac olmur. Günümüzdə ölkələr daha çox hava hücumlarına və zərbələrinə üstünlük verirlər. Artıq Ermənistanda da başa düşürlər ki, Azərbaycan ordusunun bununla bağlı geniş imkanları var. Buna görə də Paşinyanın Azərbaycanı müharibəyə təhrik etməsi məsələsi istisnadır".

**"Yeni Müsavat" xəbər verir ki, bunu politoloq Natiq Miri teleqraf.com-a deyib. Ekspertə görə, Paşinyan son bəyanatlarla iki hədəfinə çatmaq istəyir:** "Birincisi, Dağlıq Qarabağdakı separatçı rejimin danışıqlar prosesinə qatılması iddiasını irəli sürməklə zaman qazanmaq istəyir. Çünki bu gün Ermənistanın əli hərbi-siyasi cəhətdən güclü deyil. Paşinyan Ermənistanın iqtisadi cəhətdən də zəif olduğunu anlayır. Bu problemləri həll etmək üçün də ona zaman lazımdır. Çünki sınıq-salxaq, korrupsiyalaşmış ordunu yenidən təşkil etmək vaxt aparan məsələdir. İkincisi, ordunu müasir silahlarla təchiz etmək məsələsidir ki, Ermənistan burada da Azərbaycandan geridə qalır. Buna görə də zaman qazanmaq üçün Azərbaycanın qəbul etməyəcəyi açıqlamalar verir ki, bundan da prosesin uzanması üçün bəhanə kimi istifadə edir".

**Natiq Mirinin sözlərinə görə, bundan əlavə, Rusiyanın təzyiqi ilə üzləşmiş Nikol Paşinyan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirə bilmir:** "Buna görə də onun bu islahatları yerinə yetirməyə ehtiyac var ki, daxildəki nüfuzunu gücləndirməklə Rusiyaya qarşı dayanıqlı olsun. Başqa tərəfdən Azərbaycana qarşı absurd çıxışlar etməklə Qarabağ məsələsinin məsuliyyətini bölüşmək istəyir. Ona görə ki, Ermənistanda kimin hakimiyyətdə olub-olmamasından asılı olmayaraq, Dağlıq Qarabağ məsələsinin həlli istiqamətində cəsarətli addım atmaq imkanına malik olmayacaq. Uzun zamandır ki, Ermənistanda hakimiyyətlə "Qarabağ kartı" üzərində dəyişir. Buna görə də indiki məqamda Ermənistanda bu baxımdan ciddi bir dəyişiklik yoxdur. Bugünkü Ermənistan cəmiyyəti də kompromisə getməyə hazır deyil. Üstəlik, Ermənistan müxalifəti Qarabağ məsələsindən istifadə edərək, Paşinyanın nüfuz dairəsini məhdudlaşdırmağa çalışır. Paşinyan da bunu başa düşdüyü üçün separatçı rejimin danışıqlar prosesinə qoşulmasını istəməklə üzərindəki məsuliyyəti azaltmağa cəhd edir".

**Natiq Miri hesab edir ki, Azərbaycanla müharibə nəinki Ermənistan hakimiyyətinin, bütün Ermənistan dövlətinin məhv olmasına gətirib çıxara bilər:** "Bu, adi bir müharibə olmayacaq. Nə qədər Paşinyan pozucu açıqlamalar versə də, Tonoyan Azərbaycana qarşı yeni ərazi iddiası irəli sürsə də, müharibə variantının Ermənistana baha başa gələcəyini də bilirlər. Bunu Ermənistan və Rusiyanın hərbi-siyasi dairələri də etiraf edirlər ki, qısamüddətli bir müharibə olacaq və bu, Ermənistan ordusunun tamamilə dağılması ilə nəticələnəcək. Yaxın onilliklərdə də, dağılmış erməni ordusunu bərpa etmək mümkün olmayacaq. Bunun Ermənistan üçün faciələrə yol açacağını bildiyi halda düşünmürəm ki, Paşinyan Azərbaycanı müharibəyə təhrik edir".

*****

**Öz növbəsində beynəlxalq münasibətlər üzrə ekspert, "The Jerusalem Post" qəzetinin siyasi şərhçisi Arye Qutun fikrincə, belə vəziyyətdə bu cür bəyanatlar ona gətirib çıxaracaq ki, müharibə Azərbaycan üçün ədalətə nail olmağın yeganə üsulu olacaq:** "İki ay bundan əvvəl mən təmas xəttində oldum və atəşkəs rejiminin etibarsız, amanabənd olmasını real surətdə hiss etdim. Təəssüf ki, Nikol Paşinyan və onun müdafiə naziri kimi küçədən gəlmiş, "silahla meydan oxuyan" populistlər, əslində başa düşmürlər ki, indiki güclü və müstəqil Azərbaycan artıq XX əsrin 90-cı illərinin sonundakı ölkə deyil. Hamı çox gözəl başa düşür ki, dilənçi vəziyyətində olan yoxsul Ermənistan üçüncü ölkənin dəstəyi olmadan Azərbaycan ərazilərinin 20 faizini işğal edə bilməzdi. Azərbaycanın səbri tükənməkdədir. Rəsmi Bakı dəfələrlə bəyan edib və Ermənistana xəbərdarlıq edib ki, o, mövcud status-kvo ilə heç vaxt razılaşmayacaq. Lakin Ermənistanın hərbi və siyasi rəhbərliyinin sərsəm bəyanatları göstərir ki, onlar narahatdırlar, qorxuya və vahiməyə düşüblər".

**Ekspert vurğulayıb ki, Azərbaycan ordusu cəbhə xəttində hadisələrin istənilən şəkildə inkişafına hazırdır:** "İndi Azərbaycan ordusu ən güclü, ən müasir texnika və silahlar, ən yüksək döyüş hazırlığı, nizam-intizam və şəxsi heyətin mübariz ruhu deməkdir. Azərbaycanın və Ermənistanın maliyyə imkanlarındakı fərqlər onların müdafiə və hücum potensialındakı fərqlərdə əks olunur. Globalpower.org rəsmi hərbi statistika saytının hesablamalarına görə, həm hərbi, həm də siyasi və iqtisadi amillər, o cümlədən rəsmi Bakının daimi dövlət gəlirləri mənbələrinin olması, Ermənistanın isə bu cür mənbələrinin olmaması nəzərə alınmaqla Azərbaycanın hərbi qüdrəti Ermənistanın müdafiə qabiliyyətindən 1,5 dəfə yüksəkdir. Bu gün müstəqil Azərbaycan ölkənin müdafiə sektoruna Ermənistanın bütün dövlət büdcəsinə uyğun məbləğdə sərmayə qoymağı özünə rəva görə bilər. Təcrübə göstərir ki, müasir müharibədə döyüş əməliyyatları aparılması üçün kimin daha çox inkişaf etmiş, yüksək texnoloji vəsaitləri varsa, həmin tərəf qalib gəlir. 2016-cı ilin aprel döyüşləri zamanı erməni işğalçılarına qarşı İsrailin pilotsuz zərbə aparatlarının səmərəli şəkildə tətbiq edilməsini xatırlamaq kifayətdir. Heç kəs unutmayıb ki, 2016-cı il aprelin əvvəlində Azərbaycan Silahlı Qüvvələri Ermənistanın hərbi təxribatlarına cavab olaraq və öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək məqsədilə Ermənistan ordusuna sarsıdıcı hərbi zərbə endirdi. Heç kəs üçün sirr deyil ki, bu gün Azərbaycan Cənubi Qafqazda ən güclü və qüdrətli ordusu olan ölkədir. Ermənistanın baş naziri və müdafiə naziri çox gözəl bilirlər ki, Azərbaycanla birbaşa hərbi toqquşma Ermənistanın qəti iflasına və fiaskosuna gətirib çıxaracaq. Mən Azərbaycanın hərbi potensialını Ermənistanla heç müqayisə etmək istəmirəm, çünki bunlar tamamilə müqayisəolunmaz şeylərdir. Zənnimcə, Paşinyan çalışacaq ki, vəziyyət son həddə çatmasın, çünki bundan sonra onun üçün və Ermənistan üçün qarşısıalınmaz nəticələr baş verə bilər".

*****

Azərbaycanın üstün hərbi gücü düşmən ölkədə də etiraf edilir. Məsələn, Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan tərəfindən yaradılan separatçı rejimin keçmiş "müdafiə naziri" Levon Mnasakyan deyib ki, "Qarabağ münaqişəsinin həlli yolu yeni müharibədir və bu, gec-tez başlanacaq".

**Ermənistanın "Verelq" informasiya-analitik portalı yazır ki, Vyanada görüş keçirilsə də, münaqişənin nizama salınması dərin böhrandadır.** "Azərbaycan Dağlıq Qarabağı bütövlükdə qaytarmaq istəyir, Ermənistan isə "Madrid prinsipləri"ni həyata keçirməyə hazırlaşmır. Bunun fonunda Azərbaycan fəal silahlanır. Proqnozlara görə, müharibə Qarabağ və Naxçıvan cəbhəsində eyni vaxtda başlanacaq. Azərbaycan ordusu Ağdam üzərindən dəhliz açacaq və Xankəndini mühasirəyə alacaq. 2016-cı il "aprel müharibəsi"ndə Azərbaycan ordusu Talışda mövqelərini gücləndirdi və bunun vasitəsilə Ağdərə, Sərsəng su anbarı, həmçinin Ermənistan və Qarabağı bağlayan Ağdərə yoluna nəzarəti ələ aldı. "Aprel müharibəsi" bu baxımdan yeni müharibədə Azərbaycanın önə keçməsini təmin etdi", - deyə saytın analitikləri bildiriblər.

Beləliklə, işğalçı ölkə hərblə sülh arasında qalmaqda və riskli oyun oynamaqda davam edir. Atəşkəs rejimini, Qarabağ konfliktinin dinc həllini süni surətdə uzadan Ermənistan rəhbərliyi istənilən an qəfil müharibəyə tuş gələ bilər. Hər halda, Azərbaycan sonsuzadək işğal rejiminə dözmək niyyətində deyil...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 71 (7241) 5 aprel 2019

**Mart ayının son günləri Azərbaycanda bir sıra kənd təsərrüfatı məhsullarının qiymətində kəskin artımla müşayiət olundu. Xüsusilə soğanın qiymətinin 1,5 manata yüksəlməsi əhali arasında böyük narazılıqla qarşılandı. Bu məhsulun qiyməti aprelin ilk həftəsində 1 manata qədər ucuzlaşdığı halda, bu dəfə kələm və kartof bahalaşmağa başladı. Belə ki, hazırda müxtəlif satış məntəqələrində kələmin 1 kiloqramının qiyməti 1,5-2 manat arasında dəyişir. Kartof isə 0,9-1 manatdan 1,2-1,5 manata qədər bahalaşıb.**

# Kartofla kələmi bahalaşdıran səbəblər

## KTN rəsmisi: "Kartofun bahalaşması mövsümi amillərlə bağlıdır"
## Müstəqil mütəxəssis: "İranda qadağa yenicə qüvvəyə minir, amma bizdə..."





Qeyd edək ki, hökumət qurumları soğanın qiymətindəki bahalaşmanın bu məhsulun xaricə ixracının artması ilə bağlı olduğunu açıqladılar. Bəs kələm və kartofu bahalaşdıran hansı amillərdir?

**Kənd Təsərrüfatı Nazirliyi (KTN) yanında Aqrar Tədqiqatlar Mərkəzinin müşaviri Firdovsi Fikrətzadə**nin "Yeni Müsavat"a dediyinə görə, kələmin qiymətindəki kəskin artım soğanda olduğu kimi, ixracın çoxalmasından irəli gəlir: "Ötən il Azərbaycanda rekord həcmdə - 108,7 min ton kələm istehsal olunub. Buna qədər bizdə illik kələm istehsalı 90-92 min ton arasında dəyişib. 2018-ci ildə isə istehsalın 18 faiz artmasına nail olmuşuq. İstehsalla bərabər, ötən ilin oktyabr-dekabrından etibarən kələm ixracında da ciddi artım müşahidə olunur. 2017-ci ildə təqribən 700 ton, 2018-ci ildə 800 ton kələm ixrac etmişdiksə, 2019-cu ilin 2 ayı ərzində 1324 ton kələm ixrac olunub. İxracın 550 tonu Gürcüstana, 605 tonu Rusiyaya göndərilib. Bu o deməkdir ki, iki ay ərzində ixrac olunan kələmin 87 faizi iki ölkəyə göndərilib. Məsələ burasındadır ki, adətən mövsümün bu dövründə Gürcüstandan Azərbaycana kələm idxal olunurdu. Amma bu mövsüm Gürcüstanda məhsul qıtlığı olduğu üçün onlar məhsul təchizatını bizim bazar hesabına təmin edirlər".

**Mütəxəssisin sözlərinə görə, ümumiyyətlə, regionda kənd təsərrüfatı məhsullarına tələbatı artıran əsas amillərdən biri Suriya və İraq iqtisadiyyatının dağılmasıdır:** "Bu iki ölkədə kənd təsərrüfatı istehsalı iflic vəziyyətindədir. Ona görə də bizim də idxal bazarımız olan Türkiyə və İrandan bu ölkələrə ixrac hədsiz artıb. Bu artım bizim həmin ölkələrdən idxalımızın həm həcminə, həm də qiymətinə təsir göstərir. İranda son bir ayda müşahidə olunan böyük yağıntılar kənd təsərrüfatı istehsalında ciddi azalmalara gətirib çıxarıb. Ölkənin kartof-soğan ixracına qadağa qoymasının əsas səbəblərindən biri budur. Türkiyəyə gəlincə, burada istehsal artsa da, Suriya və İraqa satış daha sürətlə çoxaldığı üçün mart ayında burada da kənd təsərrüfatı məhsullarının qiymətində ciddi artım qeydə alınıb. Azərbaycandan da İraqa ixrac artmağa başlayıb. Ötən il bu ölkəyə 6 min ton soğan ixrac olunub.

İxrac imkanlarının genişlənməsi istər-istəməz bazardakı tarazlıq şərtlərinə təsir göstərir. Bazarın bəlli bir həcmi var. Bir il əvvəl planlaşdırırsan ki, bir məhsuldan bu həcmdə əkəcəm. Amma birdən-birə bazarda gözlənilməz tələb yaranır, ixrac kəskin yüksəlir. Bu, əlbəttə, ölkə iqtisadiyyatı üçün müsbət haldır. Bu mənada ki, fermerlərimiz yaxşı şərtlərlə öz məhsullarını satır və məhsulların ixrac coğrafiyası genişlənir. İxracın kəskin artımı isə bazardakı şərtlərə təsir göstərir".

**KTN rəsmisi bildirir ki, Azərbaycanda istehsal olunan məhsulun qiyməti dünya bazarlarındakı qiymətlərdən xeyli ucuzdur:**

"Bir ölkə öz məhsulunu dünya bazarına ona görə çıxara bilir ki, həmin məhsulu dünya bazarındakı qiymətlərdən daha ucuz istehsal edə bilir. Bizim məhsul da ixrac olunur və satılırsa, deməli, dünya bazarındakı qiymətlərdən ucuzdur. Ona görə də biz rahatlıqla deyə bilərik ki, ixrac qiymətlərimiz daxili bazardakı qiymətlərdən yüksəkdir".

**F.Fikrətzadə onu da qeyd edir ki, bizdə hazırda bazara faraş kələm çıxmaqdadır:** "Kürdəxanı kələminin satışı başlayıb. Bu günlərdə Ağdaş kələmi də bazara çıxarılsa da, yağıntılar üzündən məhsulun keyfiyyətində bəzi problemlər var. Bu üzdən bazarda özünə yer tuta bilməyib. Digər rayonların məhsulu da hələ yağıntılara görə bazara çıxarılmayıb. Amma yaxın günlərdə bu proses başlayacaq və qiymətlər aşağı düşəcək, bazarda tarazlıq yaranacaq".

**Kartofa gəlincə, nazirlik rəsmisi bildirir ki, bu məhsulun qiymətindəki artım sırf mövsümi amillərlə bağlıdır:** "Qiymətlərə baxsaq, ötən il də bu vaxtlar kartofun topdansatış qiyməti 90-95 qəpik arasında dəyişib, pərakəndə satış qiyməti isə 1,2-1,3 manat olub. Yəni hazırda köhnə kartof tükənmək üzrədir, yeni məhsul isə təzə-təzə çıxır. Buna görə də qiymətlərdə qısamüddətli dövr üçün bahalaşma müşahidə olunmaqdadır.

Bu ilin iki ayında Azərbaycandan xaricə cəmi 260 ton kartof ixrac olunub. İdxala gəlincə, yanvar-fevralda kartof idxalı 42 min ton təşkil edib. Ötən ilin eyni dövrü ilə müqayisədə 14 min ton artıq idxal olub. Yəni faktiki olaraq bu gün kartofun qiymətinin qalxmasında başlıca rol mövsümi amillərdir. İdxal-ixrac amili burada hansısa rola malik deyil. Düşünürəm ki, tezliklə kartofun qiyməti düşəcək. Çünki daha çox həcmdə faraş kartof bazara daxil olacaq".

**F.Fikrətzadənin sözlərinə görə, İrandan kartof ixracı qadağan olunsa da, bu qəraradək alınan məhsul hələ yoldadır:** "Hazırda gömrük sərhədlərimizdə xeyli məhsul var, rəsmiləşdirmə başa çatan kimi bazara daxil olacaq".

**Kənd təsərrüfatı sahəsi üzrə mütəxəssis Nicat Nəsirli isə hesab edir ki, bizdə qiymətlərə təsir edən əsas amillərdən biri əhalidəki psixoloji xarakterli ajiotaj sindiromudur:** "Əcnəbi ölkələrdə hansı məhsulun qiyməti bahalaşırsa insanlar şərti refleks olaraq şəxsi istehlakı aşağı salmaqla qiymətlərə təzyiq göstərir, ucuz alternativ məhsullara yönəlməklə tələbat yükünü aşağı salmağa çalışır, "balanslı istehlak" taktikasına əl atırlar. Nəticədə, əhalinin qiymətlərə gözəgörünməz basqısı yaranır. Xarici ölkələrdə tez-tez keçirilən "ucuz həftəsonu" kampaniyalarının səbəblərindən biri də budur. Bizdə isə əksinə proses baş verir. Hansı məhsulun qiymətində dəyişmə baş verirsə, hamı daha çox almağa başlayır ki, nəticədə qiymətlərin daha da yüksəlməsi üçün əlverişli platforma yaranır. Əhalinin məhsullara reallıqdan uzaq "xəyali tələbatı" yeni qiymətəmələgətirən faktora çevrilir. Uzun illərdir bazarlarda kütlənin nəbzini ölçən işbazlar bu amillə gözəl oynayırlar.

İranın kartof-soğan ixracına qadağa qoyacağı haqqında xəbər məlum olan kimi cəmi iki günün içində kartofun qiyməti təxminən soğanla bərabərləşdi, hətta bəzi satış nöqtələrində kartof "qalib gəldi". Qadağa bu gün (dünən-red.) qüvvəyə minsə də kütlə srağagündən "Səhər tezdən yuxudan durub gördün ki, iki manat olub. Nə edəcəksən?!"-suallarını verə-verə kütləvi şəkildə hamı bir-birini necə gərginləşdirdisə qiymət həqiqətən 2 manat həddinə çatdı".

**Mütəxəssisin fikrincə, işin çatışmayan tərəfi budur ki, bizdə qiymət dəyişmələri zamanı cəmiyyətdə gərginləşmiş insanlara mənəvi dəstək olan, şəxsi istehlakı aşağı salmağa dəvət edən,"psixoloji xaosla gödəniyyət arasındakı fasiləsizliyi" dayandırmağa çağırış edən sosial institutlar da yox səviyyəsindədir:** "Ən son məlumat: sahələrdə yazlıq kartofun "nübar versiyası" yığılmağa başlanıb, qiyməti də ötən ilin müvafiq dövründəkindən iki dəfə ucuzdur. Əgər ötən ilin aprelində faraş kartof 3 manata satılırdısa, hazırda Cəlilabadda 1,50 qəpikdən satışı başlayıb. Belə situasiyalarda kütləni "Qiymətlər bahalaşacaq!" təbliğatı aparıb gərginləşdirməkdən, qiymətləri daha da yüksəltməkdənsə, "Tezliklə qiymətlər sabitləşəcək" deyib müsbət tona yükləmək daha rasional addım olardı"...

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**



# "Diqlas"da malı yananlara veriləcək məbləğ bilindi

**İqtisadiyyat Nazirliyinin kollegiyası Bakının Nizami rayonunda yerləşən "Diqlas" Ticarət Mərkəzində baş vermiş yanğından zərərçəkən sahibkarlara kompensasiya verilməsi qaydalarını təsdiqləyib.**

Qaydalara əsasən, ticarət mərkəzinin ərazisində mağazalar və anbarlar icarəyə götürən sahibkarlar 10 min manat məbləğində kompensasiya alacaqlar, piştaxtalar və digər sahələri icarəyə götürən sahibkarlar isə 2 min manat həcmində kompensasiya alacaqlar.

Kompensasiya zərərin miqdarını aşmayacaqdır. Kompensasiyanın ödənilməsi üçün ayrılan vəsaitlər Kiçik və Orta Biznes İnkişafı Agentliyinin hesabına köçürüləcək və agentlik, çıxarış alınan gündən beş gün müddətində plastik kartlar vasitəsilə kompensasiya verəcək.

Aprelin 4-dən etibarən Azərbaycan İqtisadiyyat Nazirliyi "Diqlas" Ticarət Mərkəzində yanğın nəticəsində zərərçəkənlərə kompensasiyaların verilməsi üçün sənədləri qəbul etməyə başlayıb.

İqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, kompensasiya "Kapital Bank" və "Turanbank" tərəfindən veriləcək.

# DİN və ETSN birgə reydlərini davam etdirir

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları ilə birgə respublikanın şəhər və rayonlarında, müalicə-sağlamlıq, turizm zonalarının ərazilərində, su mənbələrinin və mineral bulaqların sanitar mühafizə zonalarında, Xəzər dənizinin sahil zolağında və çimərliklərdə məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılması, sənaye və məişət tullantılarının qalaqlanması, su obyektlərinin çirklənməsi və zibillənməsi hallarının qarşısının alınması məqsədilə mütəmadi tədbirlər həyata keçirir.

DİN mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, növbəti belə tədbir aprelin 3-də paytaxtın Xəzər rayonu ərazisində keçirilib. Reyd zamanı Zirə qəsəbəsində yerləşən su kanalının ətrafında məişət tullantılarının qalaqlanması faktı aşkar olunub.

Xəzər Rayon İcra Hakimiyyətinin Zirə qəsəbə nümayəndəsi F.Məlikov İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) maddəsinin tələblərini pozduğuna görə barəsində protokol tərtib edilmiş və 2000 manat məbləğində cərimələnmişdir. Həmçinin həmin ərazinin təmizlənməsi tələb olunmuşdur.

Qısa müddətdə su kanalı və onun ətrafı təmizlənərək abadlaşdırılmışdır.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

**Türkiyədə 31 mart bələdiyyə seçkiləri başa çatsa da, seçki etirazları davam edir. Ümumilikdə seçkidən sonra 46 vilayətdə (il) seçkilərin nəticələrinə etiraz olub və bundan sonra 21 vilayətdə səslərin qismən, yəni yalnız etibarsız bülletenlərin, yaxud da bütün bülletenlərin yenidən sayılması barədə qərar verilib.**

# Türkiyədə seçki gərginliyi davam edir - səslər necə hesablanır?

## Seçki mübahisələrinin mərkəzində dayanan səslərin sayılıb elan edilməsi mexanizmi haqda məlumatlar...




AKP İstanbul, Ankara, İzmir, Əskişəhər, Siirt, Dənizli, Adıyaman, Samsun, Yalova, Ərzurum, Kırklareli, Adana, Aydın, Ardahan, Antalya , Osmaniyə, Sivas, Rizə, Artvin, Van, Ağrı və Karamanda seçkilərin nəticələrinə etiraz edib.

MHP isə İğdır, Yozqat, Kırşehir, Qars, Adana, Aydın, Mersin, Aksaray , Malatya, Osmaniye və Kırklareli olmaqla 11 vilayətdə seçki nəticələrinə etiraz edib.

CHP İstanbul (bəzi rayonlarında), Ankara, İzmir, Ədirnə, Bursa, Əskişəhər, Adana, Mersin, Malatya, Giresun, Artvində nəticələrə etiraz edib.

İYİ Partiya Ankara, Dənizli, Uşak, Mersin, Hatay, Aydın, Kırıkkale, Manisada nəticələrə etiraz edib.

Hazırda İstanbulun 15 rayonunda etibarsız bülletenlər, 3 rayonunda isə bütün səslər yenidən sayılır. İstanbul Böyük Şəhər Bələdiyyəsi sədrliyinə keçirilən seçkinin nəticələri də AKP-nin etirazından sonra sayılır.

Xatırladaq ki, 31 mart bələdiyyə seçkilərində Türkiyə ərazisində 30 böyük şəhər bələdiyyəsi, 51 vilayət bələdiyyəsi, 922 rayon (ilçe), 32 min 105 məhəllə və 18306 kənddə keçirilib. Artıq seçkilərin nəticələri məlumdur. Lakin indi daha çox sual doğuran məsələlər Türkiyədəki seçki sistemidir. Xüsusən də səslərin sayılması və sürətlə elan edilməsi.

Nəzərə almaq lazımdır ki, Türkiyədə bələdiyyə seçkiləri xeyli dərəcədə mürəkkəb bir mexanizm üzərində qurulub. Ümumilikdə 31 mart seçkilərində 12 partiya iştirak edib. Üstəlik, Türkiyə seçicisi bu seçkilərdə xeyli sayda namizəd arasında bir neçə nəfəri seçməli olub. Məsələn, böyük şəhər bələdiyyələrində Böyük Şəhər bələdiyyə sədri, rayon bələdiyyə sədri, Bələdiyyə Məclisi üzvləri, Muxtarlıq və Ağsaqqallar Heyəti üzvləri seçilib. Böyük şəhər olmayan vilayətlərdə isə Vilayət Bələdiyyəsi Baş Məclisi üzvləri, bələdiyyə sədrləri, Bələdiyyə Məclisi üzvləri, Muxtarlıq və Ağsaqqallar Heyəti üzvləri seçilib. Kənd sakinləri olan seçicilər isə Vilayət Məclisi üzvlüyü, Muxtarlıq və Ağsaqqallar Heyəti üzvlərini seçib.

Türkiyə qanunlarına görə, xüsusi istisnalar xaric hər kəs qeydiyyatda olduğu ünvanda səs verir. Bələdiyyə seçkiləri zamanı qanuna əsasən əvvəlcə Böyük Şəhər Bələdiyyəsi sədri, bələdiyyə məclisi, bələdiyyə məclisi üzvlüyü və muxtarlıq, digər vilayətlərdə isə bələdiyyə sədri, bələdiyyə məclis üzvlüyü, vilayət bələdiyyə məclisi üzvlüyü, muxtarlıq seçkilərinin nəticələri sıra ilə sayılır və aktlaşdırılır.

Ümumilikdə, Türkiyədə 81 vilayətdə 878 rayonda seçki prosesində 1 milyona yaxın insan iştirak edir. Yalnız hakim AKP-nin ölkə üzrə bütün məntəqələrdə hər birində 3 nümayəndəsi təmsil olunur. Türkiyədə 31 mart bələdiyyə seçkilərinin təhlükəsizliyini 255 min polis, 130 min jandarma qoruyub.

Türkiyədə seçki prosesinə müdaxiləyə görə 2 ildən 5 ilə qədər həbs cəzası verilir. Əgər bu müdaxilə silahla edilirsə, minimum cəza 3 ildən başlayır. Birdən artıq şəxs tərəfindən həyata keçirilsə, həbs cəzası 15 ilə qədər arta bilər.

Bundan başqa, seçicilərə hansısa partiyaya səs verməsi üçün təzyiq edən şəxsə 2 ildən 6 ilə qədər həbs cəzası verilə bilər.

Bir nəfərin səs verməsinə mane olmağa görə isə 1 ildən 4 ilə qədər həbs cəzası verilə bilər. Bunu zorakılıqla edərsə, həbs cəzası 3 ildən 5 ilə qədər arta bilər. Bundan başqa, səs verdikdən sonra məntəqəni tərk etməyən və seçicilərə hansısa namizədə səs verməyi təlqin edən şəxsə 3 aydan 1 ilədək həbs cəzası verilə bilər.

Başqasının əvəzindən səs verən və ya təkrar səs verməyə cəhdə görə 1 ildən 5 ilə qədər həbs cəzası verilir. Seçki bülletenini oğurlayan şəxsə 3 ildən 5 ilə qədər həbs cəzası verilə bilər. Seçkiyə gəlməyən şəxsin əvəzinə səs verənə isə 3 ildən 5 ilə qədər həbs cəzası verilə bilər. Seçki nəticələrini dəyişməyə görə isə 5 ildən 8 ilə qədər həbs cəzası nəzərdə tutulur.

Qeyd edək ki, 31 mart seçkilərində ən çox mübahisə doğuran mövzulardan biri də dövlətin rəsmi xəbər agentliyi olan "Anadolu" Agentliyinin seçkilərin nəticələrinin açıqlanması prosesində yaranan ləngimələr idi. Məsələ ondadır ki, "Anadolu" Agentliyi Türkiyədə hazırda seçki nəticələrini elan edən yeganə media orqanıdır. O da məlumdur ki, hazırda Türkiyə Yüksək Seçki Qurumuna daxil olan nəticələri qeydə alıb hesablayan elektron hesablama mərkəzi siyasi partiyalardan yalnız AKP-yə məxsusdur. Hətta CHP-nin də belə bir mərkəzi yoxdur. Eyni zamanda media orqanları arasında yalnız "Anadolu" Agentliyi YSK-ya daxil olan seçki nəticələrini qeydə alan sistemə sahibdir.

Daha əvvəl belə bir sistem yalnız "Cihan" Xəbər Agentliyinə məxsus olub və Türkiyədə ilk seçki nəticələrini məhz bu agentlik açıqlayıb. Lakin 2013-cü il 17-25 dekabr tarixlərində baş verən hadisələrdən sonra F.Gülən qrupuna məxsus "Cihan" Agentliyi qapadılıb. Bu sistem isə sadə eyni zamanda böyük bir sistemdir. Belə ki, dairə seçki komissiyalarında, yəni rayon mərkəzlərindəki seçki qurumlarında olan agentlik əməkdaşları hər bir məntəqədən gələn nəticə protokollarını əldə edərək bunu sistemə daxil edir. Beləliklə, nəticələr DSK-da hesablanmadan artıq agentlik buna sahib olurdu. Ehtimal olunur ki, "Anadolu" Agentliyi də məntəqələrdəki protokolları partiyaların seçki qərargahı və ya rayon seçki dairələrindən alaraq agentliyin mərkəzindəki seçki hesablama ofisinə göndərir. Onlar isə gələn nəticələr əsasında səsləri hesablayaraq elan edir. 31 mart gecəsi nəticələrin elan edilməsi prosesinin gecikməsini də "Anadolu" Agentliyi məhz bununla izah etmişdi, yəni yerlərdən protokolların gəlməsi üçün yeni məlumat verilmirdi.

Eyni zamanda Türkiyə mediasının məlumatına görə, yerlərdən məlumatların toplanıb hesablanmasını həyata keçirən sistemi İstanbulda CHP-nin namizədi Əkrəm İmamoğlu da yaradıb. Məhz bu səbəbdən də İmamoğlu seçki günü axşam seçkilərin nəticələri ilə bağlı dəqiq rəqəmlərə malik olub. Lakin Türkiyədə qəbul edilən qaydaya əsasən dövlətin rəsmi agentliyi olan "Anadolu" Agentliyinin nəticələri elan etməsini istəyib.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

## Seçkilərdə qalib gəlmiş kommunist namizədə mandat verilmədi



**Türkiyənin Tunceli vilayətində ötən həftənin bazar günü keçirilmiş bələdiyyə seçkilərində səslərin 32,77%-ni toplayaraq qalib gəlmiş Türkiyə Kommunist Partiyasından namizəd Fatih Mehmet Maçoğlu mandatını ala bilməyib.**

Virtualaz.org "Sözcü" qəzetinə istinadən xəbər verir ki, Tunceli valiliyində bunun "açıqlana bilməyən təhlükəsizlik tədbirləri" ilə bağlı olduğu bildirilib.

Qeyd edək ki, hazırda Tunceli valisi Tuncay Sonel eyni zamanda qəyyum bələdiyyə sədri kimi fəaliyyət göstərir.

Maçoğlu yenə valiliyə gedərək mandatını almağa cəhd edəcəyini bildirib.

## AKP-nin YSK-dakı təmsilçisi:"Binəli bəyin qələbəsi təmin ediləcək"



**Xəbər verdiyimiz kimi, 31 mart bələdiyyə seçkilərinin nəticələri İstanbulun 19 rayonunda təkrar hesablanır.**

Strateq.az xəbər verir ki, 19 rayondan 4-də səslər təkrar sayılsa da, nəticələr dəyişməyib.

Bununla bağlı "A haber"ə açıqlama verən AKP-nin YSK-dakı təmsilçisi Rəcəb Özəl deyib ki, əgər seçkidə bir yanlışlıq varsa, buna etiraz etmək təbii haqlarıdır: "Biz öz etirazlarımızı hər seçkidə bildiririk. Seçkini idarə edən seçki qurumlarıdır. CHP, İYİ, MHP-nin də etirazları var. Onlar tələsik vəsiqə istəyirlər. Ancaq qanunda etiraz haqqı var. Bunlar dəyərləndirilməmiş vəsiqə verilə bilməz".

AKP təmsilçisi deyib ki, araşdırmaları zamanı boş bülletenlərə imza atılması faktları üzə çıxıb: "Hazırda səslərin təkrar sayılması nəticəsində Binəli Yıldırımla Əkrəm İmamoğlu arasındakı səs fərqi 29 mindən 19 minə enib. İnanıram ki, səslərin tam sayılmasından sonra bu fərq Binəli bəyin xeyrinə bitəcək və o, qələbəsini təmin edəcək".



## Türkiyə ordusu PKK-nın bir neçə dayaq məntəqəsini məhv edib

**Türkiyə Hərbi Hava Qüvvələri (HHQ) İraqın şimalında yeni əməliyyat keçirib. Yerli mətbuatın yazdığına görə, əməliyyat barədə Türkiyə Baş Qərargahı xəbər yayıb.**

Qeyd edək ki, Türkiyə HHQ-nin növbəti əməliyyatı da PKK terrorçularına qarşı keçirilib. Məlumata görə, əməliyyatlar İraqın Metina və Zal rayonlarında baş tutub.

Məlumatda qeyd edilir ki, əməliyyat zamanı zərərsizləşdirilən terrorçulardan başqa, PKK-nın bir neçə dayaq məntəqəsi də məhv edilib.



# Autizm xəstəliyi: dünyanın və Azərbaycanın sağalmaz bəlası

## Vaqif Qarayev: "Peyvəndlərin autizm yaratması iddiası əsassızdır"

**Aprelin 2-si Azərbaycanda, eləcə də dünyanın bir çox ölkələrində Autizm barədə Maarifləndirmə Günü kimi qeyd olundu. Məlum olduğu kimi, son illərdə ölkəmizdə autizm sindromu ilə doğulan uşaqların sayı artmağa başlayıb. Bəs xəstəliyin artma səbəbi nədir?**

Qeyd edək ki, autizm 3 yaşından əvvəl başlayan və ömür boyu sürən, ictimai qarşılıqlı təsirə və ünsiyyətə zərər verən, məhdud və təkrarlanan davranışlara gətirib çıxaran, beynin inkişafına mane olan xəstəlikdir.

Mütəxəssislər qeyd edir ki, autizm irsi mənşəlidir, ancaq irsiliyi olduqca qarışıqdır və mənşəyinin çoxlu gen qarşılıqlı təsirlərindən və yaxud nadir görülən mutasiyalardan qaynaqlandığı dəqiq məlum deyil. Bəziləri xəstəliyin yaranmasına peyvəndlərin səbəb olduğunu deyir. Lakin bu iddia hələlik mübahisəli olaraq qalır.

Autizm beyinin bir çox qisminə təsir edir, amma bu təsirin necə inkişaf etdiyi məlum deyil. Valideynlər uşaqlarının təxminən iki yaşında xəstəliyin əlamətlərini hiss edirlər. Təəssüf ki, autizmin çarəsi yoxdur.

Hazırda Azərbaycanda autizm diaqnozlu insanların dəqiq sayı məlum deyil. Bəzi ehtimallara görə, bu rəqəm təxminən 6 minə yaxındır.

Dünyanın bir çox ölkələrində autizm sindromlu uşaqlarla bağlı dövlət proqramı var. Lakin bu cür proqram hələlik ölkəmizdə yoxdur. Bununla bağlı reabilitasiya mərkəzləri isə ödənişlidir. Məsələn, həftədə 4 saatlıq reabilitasiya üçün aylıq 250-300 manat ödəmək lazım gəlir. Bu isə il ərzində 3000-3500 manat deməkdir.

**Həkim Vaqif Qarayev mövzu ilə bağlı "Yeni Müsavat"a danışdı:** "Autizm son vaxtlarda dünyanın, eləcə də Azərbaycanın problemidir. Problemi qəlizləşdirən də odur ki, bu sindromun səbəbi bilinmir. Doğrudur, bu vaxta qədər autizmin səbəbləri barədə müxtəlif iddialar irəli sürülüb. Lakin sübutlu təbabətdə onun səbəbi haqda hələlik heç nə yazılmır. Bir müddət bundan əvvəl peyvəndlərin autizm yaratdığı barədə məlumatlar yayılırdı. Bəzi xəbər saytlarının yazdığına, gəldiyi əsassız qənaətə görə, Azərbaycanda uşaqlara vurulan peyvəndlər keyfiyyətsiz, yararsızdır. Gəlin baxaq, axı Avropada peyvəndlə bağlı problem yoxdur. Və yaxud peyvənd autizm yaradırsa, bəs bətndaxili yaranan autizmlərin səbəbi nədir? Yəni bu iddia özünü doğrultmayıb.

Qeyd edim ki, peyvəndin autizm yaratdığı barədə məlumatlar yayıldığı andan peyvənd əleyhinə böyük bir kampaniya başladılıb və bu hələ də davam edir.

Avropanın ən qabaqcıl ölkələrində, o cümlədən ABŞ-ın bir çox ştatlarında qızılca epidemiyası geniş yayılmaqdadır. Səbəb isə insanların peyvənddən imtina etməsidir. Xatırladım ki, bu yaxınlarda İngiltərədə peyvəndlə bağlı qalmaqallı məhkəmə prosesi keçirildi. Sonda peyvəndin autizm yaratdığı sübut edilmədi. Bu baxımdan autizm sindromunun peyvəndlə əlaqələndirilməsi tamamilə əsassızdır. Son vaxtlarda isə genetik faktor irəli sürülür. Lakin bu da məntiqə uyğun gəlmir. Sual olunur: necə oldu yalnız son 20-30 ildə insanların genetik kodu dəyişdi? Yəni bir sözlə, autizmin səbəbi hələlik tapılmır".

**Vaqif Qarayev autizm xəstələrinin statistik məlumatı haqda da danışdı:** "Bu barədə məlumatları da doğru hesab etmək olmaz. Çünki dəfələrlə şahidi oluruq ki, uşaqda kiçik bir davranış pozğunluğu olan kimi onu autizmlə əlaqələndirirlər. Adətən uşağa 3 yaşında autizm diaqnozu qoyulur. Çünki uşağın davranışında pozğunluqlar olduqda 3 yaşında daha aydın müşahidə olunur".

**Həkim bu xəstəliyin dərmanla müalicə olunmadığını dedi:** "Bu cür uşaqlarla bağlı sırf reabilitasiya yaradılmalı, əsasən də psixoloqlar onlarla məşğul olmalıdır.

Autizmin əlamətlərinə gəldikdə, belə uşaqlar adətən təkliyə meylli olur, ailə üzvləri, eləcə də kollektivlə kontakta girmir, monoton hərəkət edir, nitqində eyni sözlər olur, tutaq ki, hər suala yalnız öz adlarını deməklə cavab verirlər və sairə. Beləliklə, burada həm nitq, həm də psixoloji problemlər ortaya çıxır. Lakin uşaqda qeyd etdiklərimin hamısı varsa belə, hələ autizm demək doğru deyil. Çünki müxtəlif sindromlar var. Bəzən görürük ki, bu cür davranışları olan uşaqlar bir neçə ay psixoloji reabilitasiya keçdikdən sonra həmin əlamətlər aradan qalxır".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Neft bazarında qiymət oyunu

## Proseslər qiymətlərə pozitiv təsir göstərir...

**Son günlərdə dünya neft bazarında müşahidə olunan artım tendensiyasında müəyyən səngimə yaranmaqdadır. Xatırladaq ki, aprelin 3-ü axşam saatlarınadək dünya birjalarında neftin qiymətində ciddi artım müşahidə olunub. Brent markalı neftin bareli 70 dollara yaxınlaşıb.**

Analitiklərin fikrincə, bu artımı bir neçə amil şərtləndirib. Bunlardan birincisi, OPEK+ ölkələrinin hasilatı azaltmaq qərarına əməl olunması istiqamətində əldə olunan nəticələrdir. OPEK-in açıqladığı məlumatlardan aydın olur ki, razılaşma tərəfləri ona dəqiqliklə əməl edirlər. Belə ki, OPEK ölkələrinin gündəlik hasilatı 295 min barel azalaraq 30,385 milyon barelə düşüb. Eyni zamanda Səudiyyə Ərəbistanı rəsmilərinin hasilatın azalması tendensiyasının davamlı olacağına dair açıqlamaları bazarda yaxınmüddətli dövrdə təklifin OPEK+ tərəfindən artırılmayacağı mövqeyini möhkəmləndirib. Bundan əlavə, may ayından etibarən İrandan neft alan 8 ölkəyə ABŞ tərəfindən edilən güzəşt müddəti bitir. Bu isə sanksiyalar başlanandan bəri gündəlik ixracatı 1,5 milyon barel azalan İranın maydan etibarən daha az həcmdə neft sata biləcəyi deməkdir. Dünya neft bazarında təklifi azaldan digər amil isə Venesuelanın da mövcud hakimiyyətə tətbiq olunan sanksiyalar üzündən bazara neft çıxarmaq imkanları minimuma enib, bu ölkədəki siyasi böhranın yaxınmüddətli dövrdə həll olunacağı real görünmür.

Neft qiymətlərini yüksəldən daha bir amil Çin statistika orqanının açıqlamalarıdır. Belə ki, statistik məlumata görə, mart ayında Çində Caixin işgüzar aktivlik səviyyəsi 54,4-ə bərabər olub. Fevralda bu göstərici 51,1-ə bərabər olmuşdu. Çinin xidmət sektorunda vəziyyəti əks etdirən bu göstəricinin 50-dən aşağı olması iqtisadi azalma, yuxarı olması isə artım prosesini ifadə edir. Dünyada ikinci ən böyük iqtisadiyyata malik Çində iqtisadi artımın sürətlənməsi neft bazarına pozitiv təsir edən daha bir amildir. Çünki bu artım dünyada neft və neft məhsullarına tələbatın azalmayacağı deməkdir.

Dünya neft bazarında qiymət artımına gətirən pozitiv siqnallardan biri də Çinlə ABŞ arasında ticarət müharibəsinin faktiki olaraq sona çatmaqda olmasıdır. Belə ki, aprelin 3-də tərəflər arasında razılaşmanın imzalanması ilə nəticələnəcəyi gözlənilən danışıqların sonuncu raundu başlanıb. Nüfuzlu analitik mərkəzlər artıq tərəflər arasında müqavilənin bütün detallarının razılaşdırılmış olduğunu bildirirlər. Bu da neft bazarında müsbət effekt verir.

Düzdür, ABŞ Energetika Nazirliyinin aprelin 3-də açıqlanan statistikası qiymətlərdə müəyyən azalma ilə nəticələnib. London birjasında iyun fyuçerslərinin qiyməti 9 sent ucuzlaşaraq 69,28 dollara düşüb. Nyu-York birjasında isə WTI neftinin may müqavilələrində qiymət 16 sent ucuzlaşaraq 62,42 dollar olub. Nazirliyin məlumatına görə, martın 29-da başa çatan həftə ərzində ABŞ-ın neft ehtiyatları 7,24 milyon barel artaraq 449,52 milyon barelə çatıb. Halbuki əksər analitik mərkəzlər ABŞ-ın neft ehtiyatlarının 500 min barel azalacağını proqnozlaşdırırdılar.

Energetika Nazirliyinin məlumatına görə, ABŞ-ın benzin ehtiyatları 1,78 milyon barel azalıb - proqnozlar isə 2,1 milyon barel azalma göstərirdi. Ölkədə gündəlik neft hasilatı 100 min barel artaraq yeni rekord təyin edib - 12,2 milyon barel. Qeyd olunan həftədə ABŞ-ın gündəlik neft ixracı 163 min barel azalaraq 2,72 milyon barelə düşsə də, idxalı 223 min barel artaraq 6,76 milyon barelə çatıb.

**"Fitch" Beynəlxalq Reytinq Agentliyinin təbii ehtiyatlar və əmtəə üzrə direktoru Dimitri Marinçenko da hesab edir ki, bir sıra amillər var ki, onlar neft qiymətlərində müsbət tendensiyalara əsas verir:** "Bunlar Neft İxrac Edən Ölkələr Birliyinin (OPEC) qərarları, İranda və Venesuelada neft hasilatının həcminin azalması və ABŞ əleyhinə baş verən proseslərdir. Düşünmürük ki, növbəti iki ildə İran və Venesuelada hasilat azalsa, bu, neft qiymətlərinə ciddi təsir edəcək. Biz yaxın dövrdə qiymətinin aşağı həddinin 55 dollar, yuxarı həddinin isə 70-75 dollar olacağını düşünürük. Neft bundan baha ola bilməz. Əgər qiymətlər kəskin artarsa, bu, ABŞ-ın Səudiyyə Ərəbistanı da daxil olmaqla, OPEC ölkələrinə təzyiq göstərməsinə gətirib çıxara bilər. Çünki yüksək neft qiymətləri ABŞ iqtisadiyyatı üçün açıq təhdiddir".

**Onun sözlərinə görə, ilin əvvəlindən neftin qiyməti yetərincə artıb. Ötən ilin sonu neftin bir barelə görə orta qiyməti 50 ABŞ dolları təşkil edib. Hazırda qiymətlər 70 dollaradək artıb:** "Bu qiymətlər əksər neft istehsalçısı olan ölkələr üçün yetərincə komfortlu qiymətdi. Biz hesab edirik ki, neft bazarında yüksək volatillik saxlanılacaq. Bir çox risklər var ki, neftin qiymətinin həm bahalaşmasına, həm də ucuzlaşmasına təsir edə bilər. Əgər neftin qiymətinin artımından danışsaq, onda təsiredici amil kimi Venesuelada baş verənləri göstərmək olar. Çox güman ki, bu ölkədə neft istehsalı azala bilər və bu, dünya bazarında neftin qiymətini artıra bilər. Həmçinin ABŞ-ın İran neftinə qarşı tətbiq etdiyi sanksiyalar da qiymətə təsir edən amillərdən olacaq".

**"Fitch" rəsmisi onu da əlavə edib ki, əgər neftin qiymətinin enmə risklərindən danışsaq, o zaman ilk növbədə neftə olan tələbatdan bəhs etməliyik:** "Biz dünya iqtisadiyyatında müəyyən qədər yavaşlama proqnozu ilə çıxış edirik ki, bu da neftə olan tələbatı bir qədər azalda bilər. Əgər dünya iqtisadiyyatında yavaşlama analitiklərin gözlədiyindən çox olarsa, o zaman neftin qiymətinin enməsindən danışmaq olar. Lakin bu zaman da bazarda neft təklifi az olacaq. Nəticədə, hesab edirik ki, dünya birjalarında neftin qiyməti yetərincə volatil olacaq. Əgər neftin orta dəhliz qiymətindən danışsaq, o zaman deyə bilərik ki, bu göstərici 50-70 dollar arasında dəyişəcək".

**D.Marinçenko bildirir ki, "Fitch" 2019-cu ildə "Brent" markalı neftin 1 barelinin qiymətinin orta hesabla 65 dollar olacağını proqnozlaşdırır:** "2020-ci il üçün proqnoz 62,5 dollar, 2021-ci il üçün proqnoz isə 60 dollardır. Uzunmüddətli dövr üçün isə qiymətin orta hesabla 57,5 dollar olacağını düşünürük. "WTI" markalı neftin qiyməti isə 50 dollardan aşağı ola bilər (Report və ONA).



❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

**Elan**

**24.07.2017-ci il tarixdə AR. SHXMDX-nin Zəngilan rayon bölməsi tərəfindən Hüseyinli Nəbi Məzahir oğluna verilmiş SX N0236227 saylı hərbi bilet itdiyi üçün etibarsız sayılır.**

***

**Zaqatala rayonu, Aşağı Tala kənd sakini Tahirov Telman Tahir oğluna məxsus torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN-1527B, kod: 40200028) itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 71 (7241) 5 aprel 2019




# Ömür sərmayəsindən doğru istifadənin açarı



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!
Mübarək Rəcəb ayının son günlərini yaşayırıq. Bu ayda, bundan sonra gələn Şəban ayı və mübarək Ramazan ayında bizim özümüzü düzəltməmiz üçün çox böyük imkan və fürsətlər var.**

Allah Təala cəmi insanlara bu mübarək Üçaylıqda islah olmaq tofiqatını nəsib etsin, inşəallah!

## Bu dönəmdə əsil iş

Əxlaq ustadları buyururlar ki, bu aylarda əsas işimiz - özümüzün islahı, qəlbimizin qəflət və qaranlıqdan xilas edilməsi olmalıdır. Əsil iş - özümüzü düzəltmək, özümüzü islah, qaydaya salmaq, qəlbimizi çirklərdən, qaranlıqlardan, qəsavətdən təmizləməkdir.

Bütün peyğəmbərlər (ə), onların vəsiləri - hamısı bunun üçün gəlib. Onlar gəliblər, mövzuları çatdırıblar, şəhid olublar, bu yolda canlarını qoyublar, fədakarlıqlar ediblər, işgəncələr çəkiblər. Bunlar hamısı müqəddimə olub ki, biz özümüzü düzəldək. Bütün bunlar hamısı buna görədir ki, biz bu dünya həyatında özümüzü düzəltməklə məşğul olaq. Qalan hər bir şey bunun yanında haşiyədir.

Təhsil, iş, ailə - bunlar hamısı vacib və önəmlidir. Amma bir şərtlə ki, biz onlar vasitəsilə özümüzü düzəldək. Əgər biz özümüzü düzəltsək təhsilin də, işin də, dostluğun da, istirahətin də, ailənin də, övladın da bərəkəti var. Əgər özümüzü düzəltməsək, əksinə - bütün bu nemətlər bizə zərər vuracaq. Çünki, onlar artıq bizim islahımıza yox, daha çox reqressimizə xidmət edəcək.

## İxtiyarımızda yalnız bir həqiqi sərmayə var

Bizim faktiki olaraq ixtiyarımızda bir həqiqi sərmayə var. Amma biz onu bəzən heç tanımırıq, heç onu nəzərə almırıq. Bizim həyatımız - bizə verilmiş ən böyük sərmayədir. Bizim ixtiyarımızda olan sərmayənin adı - ömür sərmayəsidir.

Rəbbimiz bu haqda bizlərə Qurani-Kərimdə xəbərdarlıq edir. Müqəddəs Kitabın "Əsr" surəsindən buyurulur: "Şübhəsiz, insan (ömrünün azalması, puç olması və nəfsi istəklərinin və şeytanın ona qalib gəlməsi baxımından) ziyan içindədir. Yalnız iman gətirib saleh əməllər edən, bir-birinə haqqı (sabit doğru əqidə və əməlləri) və (vəzifələri yerinə yetirməkdə) səbiri tövsiyə edənlərdən başqa".

Bütün insanlar zərər içərisindədir. İnsan sözünün qabağında gələn "əlif-lam" artikli ona işarədir ki, bütün insanların zərərdə olmasına işarə edilir. Amma buradaca istisna da qoyulub. Aydın olur ki, o istisnaya aid insanlardan başqa, hamı zərər içərisindədir. İndi ki, biz bir sərmayəmizin olduğunu və o sərmayədən də hər gün azaldığını başa düşdük - gərək dərk edək ki, zərər içərisindəyik.

Sanki Rəcəb ayı dünən daxil olmuşdu, artıq bu ayın sonuna yetişdik. Bir də ayılacağıq ki, beləcə Nimeyi-Şəbana yetişmişik. Bir müddət də keçəcək, artıq Ramazan ayına daxil olacağıq. Əgər eyni ruhiyyə ilə davam etsək, bu fəzilətlərlə zəngin ayların bərəkətlərini yaşaya bilməyəcəyik.

## Buz satanın misalı

Biz o vəziyyətdəyik ki, sərmayəmiz hər gün əldən çıxır. Bu baxımdan biz - isti havada buz satan kimiyik. Əgər buz satan həmin müəyyən müddət ərzində buzunu satmasa, günün sonuna malı əriyəcək, ondan heç bir xeyir də götürə bilməyəcək. Bizim də ömrümüz bu cür əriyir.

Hamımızın ömründən gedir. Hamımız bir yaşa çatacağıq ki, ən imkanlılarımız, ən güclülərimiz, ən fiziki bacarıqlılarımız da güclə hərəkət edəcək, güclə danışacaq, güclə başa düşüləcək. İstəmədiyimiz vaxtda halımız, vəziyyətimiz dəyişəcək. Artıq oruc tutmaq çətin olacaq, namazımızı da güclə qılacağıq. Ona görə də, xüsusən gənc yaşında, orta yaşında olan insan gərək ömür sərmayəsinin fərqinə varsın.

## Davamlı olaraq ömür sərmayəmizin azalması - qaçılmazdır

Bizim ömrümüz davamlı olaraq gedir. Sanki 2019-cu il dünən daxil olmuşdu. Artıq dördüncü ayında yaşayırıq. Bir də ayılacağıq ki, yaydır, tətillər, sonra təhsil-iş dönəminə hazırlıq, sonra da il tamamlanacaq. Beləcə illər bir-birini əvəzləyəcək, ömür azala-azala gedəcək. Əgər bizlər bu mübarək aylarda bunların fərqinə varsaq, düşünərik ki, ömür sərmayəsindən necə istifadə edək ki, bizim üçün faydalı olsun.

Bizim ikinci bir sərmayəmiz yoxdur, yalnız bir sərmayəmiz var, o da azala-azala gedir. Əgər iman olsa, saleh əməl olsa, bir-birimizi haqqa dəvət etsək və bir-birimizə səbirliliyi tövsiyə etsək - o zaman sərmayə yaxşı nəticələr verməyə başlayar. Əgər bunları etməsək, zərərlə çıxacağıq.

Məlumdur ki, bu həyatdan sonra, növbəti həyatımıza gedəcəyik. O da məlumdur ki, oraya əliboş getsək, vəziyyətimiz pis olacaq. Sanki biz əlimizdə olan pulla bazara gedirik, pulumuz xərclənir, əlimizdə isə bir şey qalmır, yerinə bir şey almamış oluruq. Bu cür də ömür sərmayəmiz mahiyyət etibarilə bizdən asılı olmadan əlimizdən gedirsə, yerinə də nəsə qazana bilmiriksə - vay olsun halımıza.

## Yalnız bu insanlardan başqa, dünyada bütün hər kəs zərərdədir

Yuxarıda göstərilən "Əsr" surəsinin bəzi təfsiri nöqtələrinə diqqət etmək də faydalı olar. Əvvəla başa düşülən budur ki, o ki, bütün insanlara aid edilir, bu, təsadüfi deyil. Bu, onu göstərir ki, insanların mütləq əksəriyyəti, kifayət qədəri zərərdədir. Yalnız istisna edilən qrup insanlardan başqa, insan adına olan hər kəsin zərərdə olmasına vurğu edilir.

Bu, onun göstəricisidir ki, imanlı, saleh əməl sahiblərindən, bir-birlərini haqqa və səbrə dəvət edənlərdən başqa, hər kəs sərmayəni səhv yöndə istifadə edir.

Əksər insanlar sərmayələrindən doğru istifadə etmir və əksəriyyət, sərəncamında olanından azalda-azalda gedir.

## Kimlər zərərdən sığortalanıb?

İkinci təfsiri nöqtə budur ki, imansızlıq, saleh əməlin tərk edilməsi, haqqı və səbri təbliğ etməmə - insana böyük zərər gətirər. Bəzən bir cür insanlar olur, fəxrlə deyirlər ki, mən filan qəbahətli işi gördüm, yaxud filan azğın əqidədəyəm. Burada əslində fəxr ediləsi bir məsələ yoxdur, yəni sən etiraf edirsən ki, mən böyük zərərdəyəm.

Biriləri deyir ki, mən necə gəldi yaşayıram. Burada qətiyyən fəxr ediləsi məsələ yoxdur, beləsi bilməlidir ki, böyük zərərdədir. Yəni imandan uzaq olmaq, saleh əməli tərk etmək - insanı zərərə aparır.

Maraqlı tərəfi budur ki, ayədə "xusr", yəni zərər sözü qeyri-müəyyən halda gəlib. Ərəb qrammatikasında bu, o zaman belə gəlir ki, bir şeyin böyüklüyünü göstərsin. Yəni bəlli istisnalardan, müsbət durumlardan kənarda olan hər bir insan böyük zərərdədir. O adam ki, imanı yoxdur, gözəl əməllərdən uzaq düşüb, haqq tərəf getmir və insanları haqqa tərəf çağırmır, səbrli olmur və insanları səbrə tərəf dəvət etmir - o, böyük zərərdədir.

## Səbir nədir?

Bəlli olur ki, yalnız o möminlər ki, iman gətiriblər, saleh əməllər edərlər, biri-birini haqqı qəbul etməyə dəvət edirlər və səbirliliyi tövsiyə edərlər - ziyana uğramayacaqlar. Yəni yalnız imanlı olmaq və saleh əməl sahibi olmaq kifayət etmir. Haqqı qəbul etmək və haqqı təbliğ etmək, səbirli olmaq və bir-birini səbirli olmağa çağırmaq - ziyanda olmamaq üçün əsas şərtlərdəndir.

Səbir məfhumu çox vaxt səhv anlaşılır, bəzən toplumda çox vaxt mənfi mənada başa düşülür. Səbr - zəiflik, acizlik anlamında deyil. Ötən bəhslərimizdə səbir haqqında danışarkən, qeyd etmişik ki, səbrin üç növü var. Hər üçündə hərəkət, müqavimət, dayanıqlılıq var.

Biri budur ki, günah səni cəzb edir, sən günahın qarşısında dayanırsan və dayanarkən də səbir edirsən, dözürsən, günahın aldadıcı "şirinliyi" səni azdırmır.

Digəri budur ki, Allaha itaət edərkən qarşıya çıxan çətinliklərə dözürsən, səbir göstərirsən, itaət yolundan çəkilmirsən.

Üçüncüsü də budur ki, qarşıya müsibət və çətinlik çıxarkən səbirlilik, səbatlılıq göstərəsən, bu çətinlik səni səbatlı halından çıxartmasın, yoluna davam edə biləsən.

Göründüyü kimi, səbir - hərəkətdir, səbir - dayanıqlılıqdır. Kimlər bunlara malik olsa - ziyana uğramaz. Deməli, imanlı olmaq, saleh əməl etmək, haqqa və səbirliliyə yönəlmə və bunları bir-birinə tövsiyə etmə səbəb olur ki, insan öz varlıq sərmayəsindən doğru-dürüst istifadə etsin.

Biz gərək öz sərmayəmizi sığortalayaq. Tədbirli insanlar, bacarıqlı iş adamları öz əllərində olan sərmayəni sığortalayırlar. Biz də ömür sərmayəmizi sığortalaya bilərik. Bundan sonra ondan istifadənin strategiyasını, taktikasını qurmalıyıq. İmanlı olmaq, saleh əmələ, haqqa və səbirliliyə malik olmaq və bir-birinə bunları tövsiyə etmək - ömür sərmayəsinin sığortasıdır.

Bunlara malik olandan sonra, insan artıq ömür sərmayəsindən nə qədər böyük fayda götürə biləcəyini düşünə bilər.

Əgər bunlar olmasa, artıq bəri başdan uduzmuşuq. Onlardan nə qədər uzaq düşmüşüksə, bir o qədər zərərə uğramışıq.

## Ən böyük zərərlər bunlardır

Digər təfsiri çalar budur ki, ayədə "saleh əməllər" sözü də "əlif-lam" müəyyənlik artikli ilə gəlib. Bu, bütün saleh əməllərə işarədir. Seçilmiş əməllərdən söhbət getmir. Biz bəzən saleh əməlləri seçirik. Saleh əməl adına nə varsa, Rəbbimiz bizlərə hamısını tövsiyə edir. Bir əlavə var - təbii ki, söhbət gücümüz çatan, iqtidarında olduğumuz saleh əməllərdən gedir. Bizim həyat sərmayəmizin istifadəsində edə biləcəyimiz ən böyük iş - bütün saleh əməllərə can atmaq və iqtidarında olduğumuzu həyata keçirməkdir.

Ayədən həm də anlaşılır ki, insan üçün ən böyük zərərlər - elə imansızlıq, saleh əməllərdən uzaq düşmək, haqqa və səbrə malik olmamaq, onları bir-birinə tövsiyə etməməkdir. Zərərin, ziyanın, böyük itkinin başında elə bunlar dayanır. Günün ən böyük xəstəliklərindən biri - elə məhz haqq və səbrə laqeyd olmaqdır. Tək saleh əməl sahibi olmaq insanı qurtarmır. Mütləq budur ki, insan haqqı tanısın, haqq ilə yaşasın, həqiqi mənada səbir etsin və səbirliliyi təbliğ etsin.

Əgər insan haqq və səbirlilik mövzusuna laqeyd olsa - zərərdədir. Kim haqq məsələsində, dayanıqlılıq məsələsində laqeyd olsa - zərərdədir. Bəzən insanlar olur ki, deyir, məgər mənə qalib kiminsə haqqı?! Rəbbimiz bəyan edir ki, tək insanın özü ilə bağlı haqqa qarşı deyil, ümumiyyətlə haqqa qarşı, geniş anlamda haqqa qarşı laqeyd olan insanlar zərər içərisindədirlər.

## Haqla yaşamaq və haqqı yaşatmaq

Haqqa və səbrə tövsiyə etmək - saleh əməlin nümunəsidir. Allah Təala saleh əmələ tövsiyə edir, sonra da haqq və səbirlə bağlı buyuruşun gəlməsi ona işarədir ki, saleh əməlin ən gözəl nümunələri budur ki, insan özü haqqı qəbul etsin və haqqı yaysın, səbirli olsun və səbirliliyə dəvət etsin. Bu özü - gözəl əməlin xüsusiyyətlərindəndir.

Haqq və səbrə tövsiyə etmək üçün insan gərək ilk öncə özü əməl etsin. Rəbbimiz bəyan edir ki, bu insanlar haqqa çağırır, səbirliliyə dəvət edirlər. Bu, o zaman düz olar ki, insan özü əməl etsin. Amma, gərək insan özü əməl etmək həddində qalmasın, özü əməl etsin və bununla yanaşı, onun təbliğçisi olsun, topluma da onu ötürsün.

Mühüm şərt - haqla yaşamaq və haqqı yaşatmaqdır, haqqın daşıyıcısı olmaqdır; səbirli olmaq və səbirliliyin topluma daşıyıcısı olmaqdır. Əgər bunu etməsək, sərmayədə zərər etmiş oluruq. İnancımızda bu mənada "yüngül versiyalı İslam" kimi anlayışlar yoxdur. Çünki "İslamın yüngül versiyası" - özün ibadət et, başqaları nə edirsə-etsin, toplumda nə haqsızlıq baş verirsə-versin, sənə dəxli yoxdur - belə yanaşma kökündən səhv və zərərdir. İnancın "yumşaq" versiyası - sərmayədə zərər etməkdir.

## Birgə olmaq, ümmət halına gəlmək tövsiyəsi

Ayədən o da başa düşülür ki, haqqı qəbul edib, təbliğ etmək - səbirli olmağa bağlıdır. Səbirli olmasaq, haqqı qəbul edib yaşada bilmərik və təbliğ etmək də alınmaz.

Səbirlilik - haqqı qəbul etməyin əlamətidir. O insan səbirli ola bilir ki, həqiqəti tanıya bilir. Əgər həqiqəti tanısa, səbirli ola bilər və səbirliliyi təbliğ edə bilər.

Ayədən başa düşülür ki, özünü islahla yanaşı, toplumun islahı da əhəmiyyətlidir. Dinimiz çatdırır ki, insan həm özünü islah etməli, həm də toplumun islahına öz töhfəsini verməlidir. Özünü islah, toplumun islahı ilə yanaşı olmalıdır. Bu ikisi paralel olmasa, ömrümüzün sərmayəsində zərər etmiş olarıq.

Haqqı tanımaq, səbri, dayanıqlılığı tanıma - bunlar hamısı təkbaşına baş verən işlər deyil. Ayədə gəlir ki, bir-birlərini haqqa və səbrə dəvət etmək - önəmlidir. Bir-birlərini dəvət etmə olmayanda, mühit olmayanda, ümmət olmayanda, cəm olmayanda insanın özünüislahı mümkün olmur. Deməli, bu ayə öz-özlüyündə müsəlmanların birgə yaşayışını, cəmin əhəmiyyətini, mühitin əhəmiyyətini vurğulamış olur.

**Allahım, bizlərə imanlı olmağı, əməlisaleh olmağı, haqqa və səbirliliyə bağlantılı olmağı və dəvət etməyi nəsib et!**

**Allahım, bizləri ömür sərmayəsində zərər etməyənlərdən qərar ver!**

**Allahım, aqibətlərimizi xeyirli et! Amin!**

YENİ MÜSAVAT
Son səhifə
N 71 (7241) 5 aprel 2019



# Xəstəxana gizli şəkildə qadınların doğuşunu çəkib

Onlarla qadın Kaliforniyanın L-Mesa şəhər xəstəxanasını məhkəməyə verib. İnformasiya agentliyi olan "Ars Technica" xəbər verir ki, bu qadınlar tibbi müəssisəni gizli kamera ilə onlardan xəbərsiz doğuşlarını qeydə almaqda ittiham edirlər. Bu çəkilişlərə doğuş prosesləri və digər əməliyyatlar da daxildir.

Xəstəxana təmsilçiləri etiraf ediblər ki, həqiqətən də 2012-ci ilin iyulundan 2013-cü ilin iyununa qədər üç palatada gizli kamera quraşdırılıb. Onlar bu yolla xəstəxana işçilərindən kimlərin anasteziya məqsədilə istifadə olunan narkotik maddələri oğurladığını müəyyənləşdirməyə çalışıblar.

"Hər nə qədər kameralar anasteziya preparatlarının yerləşdirildiyi məkana yaxın qoyulsa da, hərdən ora əməliyyat otağındakı həkimlər, pasientlər də düşürdü" - bunu da xəstəxana təmsilçisi etiraf edib.

Bu, tibb müəssisəsindəki 8 xəstədə narazılıq yaradıb. Onlar bildiriblər ki, doğuş, qeysəriyyə əməliyyatı, sterilizasiya zamanı çəkilişə icazə verməyiblər. Bundan başqa, qadınları narahat edən o olub ki, videoçəkilişlər kompüterlərdə saxlanıb və üstəlik, onların heç biri parolla qorunmayıb. Bununla da videorolikləri arzulayan hər kəs izləyə bilərmiş.

# İti sahibindən aldılar, camaat ayağa qalxdı

İtaliyanın Rovere-della-Luna şəhərində bərk hürdüyü üçün sahibindən alınan it üçün 160 min nəfər ayağa qalxıb. 3 yaşlı, Miro ləqəbli ovçarka cinsli itin sahibəsi iddia edir ki, itinin səsi ilə bağlı şikayət edənlərin bununla bağlı əllərində heç bir əsas yoxdur. Qadının sözlərinə görə, qonşularından cəmi birinin itlə bağlı şikayəti olub. Qadın deyir ki, gecələr Mironu qəsdən həyətə buraxmırdı. Məqsədi isə ətrafdakıları narahat etməmək idi. Buna baxmayaraq, qonşunun şikayəti əsasında ona iki dəfə pul cəzası kəsiblər. Bunlardan biri 70 avro, digəri isə 154 avro məbləğində olub. O, üçüncü dəfə cərimləni ödəməkdən imtina edəndə isə polis onun əlindən itini alıb. Qadın Change.org saytında petisiya təşkil edib və itinin geri qaytarılmasını tələb edib. Qadın yazıb: "Miro mənim ailəmin bir hissəsidir. Onun evi və böyük bağı var. Həmin yerdə o qaçır və oynayır. Mironu bizdən elə götürdülər ki, sanki o canlı varlıq yox, hansısa bir əşyadır".



Bir həftə ərzində Mironu azad etmək çağırışına 90 min nəfər qoşulub. Bu həftənin çərşənbə axşamı günü isə petisiyanın altında 160 min imza görünüb.

# İki dost zarafatla bir-birini gülləlalədi





Amerikanın Arkanzas ştatında polis güllə keçirməz jilet geyinərək bir-birinə atəş açan iki sərxoş kişini yaxalayıb. Bu barədə "5News" nəşri xəbər verir. İnsident 31 martda baş verib. 50 yaşlı Çarlz Yucin Ferris 36 yaşlı dostu Kristofer Hikslə öz evində içki içib. Ferris gülləkeçirməz jilet geyinib və Hiksdən xahiş edib ki, ona atəş açsın. Daha sonra o, jileti Hiksə verib və onun kürəyindən 5 dəfə atəş açıb. Güllələr onun bədəninə keçməyib, amma dərisində göyərtilər qalıb. Bir müddət sonra Ferris həyat yoldaşına sinəsindəki ağrıdan şikayətlənib. Sonuncu onu xəstəxanaya çatdırıb.

Ferris həkimlərə baş vermiş hadisəni başqa cür danışıb. Deyib ki, tanımadığı şəxs ona 200 dollar verib ki, meşəyə qədər onu müşayiət etsin. Son nəticədə orada atışma baş verib. Daha sonra zərərçəkmişin həyat yoldaşı gəlib və müstəntiqə hadisənin əslini danışıb. Polis kişini saxlayıb. Ferris etiraf edib ki, bu hekayəni dostu Hiksi cinayət məsuliyyətindən qorumaq üçün uydurub. Ferris və Hiksi 5 min dollar girov müqabilində azadlığa buraxıblar. Amma onların işi üzrə dinləmələr 13 mayda keçiriləcək.

## Qoroskop




**QOÇ** - Yaxşı olar ki, əsas vaxtınızı fəaliyyət sahəsində xərcləyəsiniz. Münasibət qurmaq, hansısa qlobal problemi həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu ərəfə deyil. Yalan vədlər verməyin.

**BUĞA** - İnsanların bir-birinə soyuqlaşdığı indiki ərəfədə dini-mistik dəyərlərə qiymət verin. Cinayət tərkibli işlərdən, ümumiyyətlə Tanrıya zidd fəaliyyətdən çəkinin. Axşama doğru səhhətinizi qoruyun.

**ƏKİZLƏR** - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Başqalarının qəlbinə dəyən hərəkətlərə yol verməyin.

**XƏRÇƏNG** - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.

**ŞİR** - Bu təqvimdə ən müxtəlif situasiyalarla rastlaşa bilərsiniz. Daha həssas olduğunuz üçün emosiyalarınızı cilovlayın. Mübahisə etməyin. Başınızı yalnız adi işlərlə qatın. Axşam sevinəcəksiniz.

**QIZ** - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.

**TƏRƏZİ** - O qədər də uğurlu gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlər zəminində ehtiyatlı olun. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin.

**ƏQRƏB** - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün müqəddəs məkanlara ayaq basmaq, savab iş görmək çox yaxşıdır.

**OXATAN** - Ulduzların düzümü bu təqvimdə riskdən uzaq olmağı tövsiyə edir. Nahar ərəfəsində isə perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə bacardığınız qədər qənaətcil olun.

**OĞLAQ** - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şans qazanacaqsınız. Ölçülü-biçili danışın.

**SUTÖKƏN** - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Bəxtinizdə pul da var.

**BALIQLAR** - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Tüklərdən xilas olmaq istəyirdi, üzü yandı...



Avstraliyanın Viktoriya ştatının Melburn şəhər sakini lazer epilyasiyasına gedib və ciddi yanıq xəsarəti alıb. Bu barədə "Daily Mail" nəşri A Current Affair-ə istinadən xəbər verib. Lilian Pol yerli kosmetika salonunda üzündəki tüklərdən xilas olmaq üçün prosedura girib. Seansdan sonra avstraliyalı bezdirici ağrı hiss edib və dərhal klinikaya müraciət edib. Həkimlər o nəticəyə gəliblər ki, dəridəki çoxsaylı yanıqlar lazer epilyasiyası nəticəsində baş verib.

Həkimlər xəbərdarlıq ediblər ki, Polun dərisi bir aydan bir neçə ilə qədər bərpa oluna bilər. Avstraliyalı qadın məcburən işini atıb və iki ayını evdə keçirərək günəş şüalarından uzaq olmağa çalışıb. "Bu, çox ağrılı idi. Həftədə iki dəfə yanmış dərini çıxarırdım. İndi özümü komfortda hiss etmək üçün mən tonal kremdən istifadə edirəm" - bunu da qadın deyib.

Kosmetik salon Lilian Pola vurduqları ziyana görə böyük məbləğdə kompensasiya ödəyib.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Nazim SABİROĞLU
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.755